# Musiqi

METODİK VƏSAİT




2

LAYİHƏ

LAYİHƏ

OQTAY RƏCƏBOV
NAZİM KAZIMOV
REYHAN HACIZADƏ

Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün

# Musiqi fənni üzrə dərsliyin

# METODİK VƏSAİTİ

© Azərbaycan Respublikası Təhsil Nazirliyi

CC BY NC SA

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi tahsil_az@yahoo.com və derslik@edu.gov.az elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

LAYİHƏ

Təhsil

## KİTABIN İÇİNDƏKİLƏR

İzahat vərəqi ....................................................................................................3
İllik planlaşdırma ................................................................................................4
Fənn üzrə məzmun standartlarının inteqrasiya cədvəli. ..................................6

**I. AZƏRBAYCAN MƏNİM VƏTƏNİMDİR**
1. Melodiya ....................................................................................................10
2. Mahnıda söz ................................................................................................12
3. Salam, mənim Vətənim! ..................................................................................14
4. Himn ..........................................................................................................16
5. Kiçik summativ qiymətləndirmə .......................................................................17

**II. SEHRLİ DÜNYA**
6-7. Fortepiano aləmi .......................................................................................18
8. Marş ..........................................................................................................20
9. Azərbaycan xalq rəqsləri ................................................................................22
10. Ritmsiz musiqi yoxdur ..................................................................................24
11. Kiçik summativ qiymətləndirmə .....................................................................25

**III. QIZILI PAYIZ**
12. Təbiət və musiqi ..........................................................................................26
13. Can nənə, bir nağıl de ..................................................................................28
14. Qış gəlibdir, qış gəlib ...................................................................................30
15. Gəzinti .......................................................................................................32
16. Kiçik summativ qiymətləndirmə .....................................................................33
Musiqi notlarını tanıyaq (KSQ) ..........................................................................33
17. Sinif konserti ...............................................................................................33

**IV. İFADƏLİ MUSİQİ ALƏMİ**
18. Azərbaycan xalq çalğı alətləri .......................................................................34
19. Musiqidə iki lad ..........................................................................................36
20. Laylalar .....................................................................................................38
21. Əziz ana, şirinsözlü ana ................................................................................40
22. Kiçik summativ qiymətləndirmə .....................................................................41

**V. AXAR SULAR AŞIB-DAŞIR**
23. Çiçəkli yaz .................................................................................................42
24. Baharı qarşılayaq ........................................................................................44
25. Novruz bayramı ...........................................................................................45
26. Mənim Azərbaycanım ...................................................................................46
27. Kiçik summativ qiymətləndirmə .....................................................................47

**VI. TEATR ALƏMİ**
28. Səslənən şəkillər .........................................................................................48
29. Sehrli çubuq ...............................................................................................50
30-31. Kukla teatrı ............................................................................................52
32. Musiqini yaradan intonasiya ..........................................................................54
33. Kiçik summativ qiymətləndirmə .....................................................................55
Musiqi alətlərinin sehrli səsləri (KSQ) ................................................................55
34. Sinif konserti ...............................................................................................55
Mahnı repertuarı ..............................................................................................56

LAYİHƏ

## İZAHAT VƏRƏQİ

Ümumtəhsil məktəblərində tədris olunan "Musiqi" fənninin mahiyyəti məktəblilərin intellektual və yaradıcı inkişafını təmin etməkdən ibarətdir.

Yeni musiqi kurikulumunun tələblərinə əsasən təlim prosesi əvvəlcədən müəyyən olunmuş nəticələrə əsaslanır. Bununla əlaqədar, müəllim əlaqələndirici, istiqamətverici, məsləhətçi, şagirdlər isə öyrənmək üçün tədqiqat aparan, öyrəndiklərini tətbiq etməyi bacaran yaradıcı subyektlər rolunda çıxış edirlər.

"Musiqi" fənni üzrə II sinif dərslik komplekti dərslik və müəllim üçün metodik vəsaitdən ibarətdir.

***Müəllim üçün metodik vəsait.*** Burada dərsin mövzusu və musiqi repertuarı, fənn üzrə məzmun standartları, inteqrasiya, gündəlik planlaşdırma nümunələri və qiymətləndirmə cədvəli verilmişdir.

**DİQQƏT!**

**Dərslikdə 28 mövzu öz əksini tapmışdır. Hər bölümün sonunda kiçik summativ qiymətləndirmə keçirilir. Beləliklə, ilboyu toplam 6 dərs saatı (KSQ) əlavə olmaqla cəmi 34 dərs saatı tədris olunur.**

Hər dərsə hazırlaşan müəllim şagirdlərin biliyini nəzərə almalı, dərsin məqsəd və mövzusuna müvafiq əyani (not müntəxəbatı, disk, qiymətləndirmə plakatı və s.), texniki (kompüter, maqnitofon, DVD-pleyer və s.) və köməkçi (paylayıcı material, skotç, flomaster və s.) vəsaitlər seçməlidir.

Dərs prosesində şagirdlərin bilik və bacarıqlarını qiymətləndirmək üçün aşağıdakı cədvələ istinad etmək olar:

| № | Meyar / Qiymətləndirmə | zəif | orta | yaxşı | əla |
|---|---|---|---|---|---|
| 1. | Şən və qəmli musiqinin müəyyənləşdirilməsi | | | | |
| 2. | Emosional münasibətin büruzə verilməsi | | | | |

Dərsin məqsədinə uyğun olaraq cədvələ aşağıdakı meyarları da daxil etmək olar: musiqinin ifası (mahnının ifası, sadə alətlərdə çalma), sual-cavablarla mövzunun əhatə olunması, yeni ideyaların irəli sürülməsi, əməkdaşlıq, qrup işində fəallıq və təşəbbüs göstərilməsi, problemin həllinə yaradıcı yanaşma, ümumiləşdirmə bacarığı, təqdimetmə və s. Hər vahidin sonunda (Əsas janrlar, Mürəkkəb janrlar, Musiqi və obraz, Musiqi dili) əldə edilmiş nəticələrin səviyyəsini öyrənmək üçün müxtəlif (yazılı, şifahi və musiqili) testlərdən istifadə etmək olar.

***Dərslik.*** Burada hər dərsin məzmununa uyğun məlumat, həmçinin illüstrasiyalar, bəstəkarların portretləri, mahnıların mətni, tapşırıqlar və açar sözlər verilmişdir.

[1] Dərsin tədrisinə aid daha ətraflı məlumat almaq üçün bax: Kurikulum. Elmi-metodik jurnal, №2, Bakı, 2009. "Təhsil Nəşriyyat-Poliqrafiya" MMC. "Musiqi" (I sinif). Müəllim üçün vəsait. Bakı, 2008. "Naksuana" nəşriyyatı.

LAYİHƏ

# İLLİK PLANLAŞDIRMA

| Dərs | Dərsin mövzusu | Vokal-xorla oxuma (bəstəkar, şair) | Dinləmə | Dərs saatı |
|---|---|---|---|---|
| 1. | Melodiya | “Cücələrim”. Musiqisi Qəmbər Hüseynlinin, sözləri Tofiq Mütəllibovundur. | “Cücələrim”. Musiqisi Qəmbər Hüseynlinin, sözləri Tofiq Mütəllibovundur. | 1 saat |
| 2. | Mahnıda söz | “Cücələrim”. Musiqisi Qəmbər Hüseynlinin, sözləri Tofiq Mütəllibovundur. | “Sülh göyərçiniyik biz”. Musiqisi Rəşid Şəfəqin, sözləri Zahid Xəlilindir. | 1 saat |
| 3. | Salam, mənim Vətənim! | “Azərbaycan” aşıq mahnısı. Not yazısı Səid Rüstəmovun, sözləri Səməd Vurğunundur. | “Şuşanın dağları”. Musiqisi və sözləri Xan Şuşinskinindir. | 1 saat |
| 4. | Himn | Azərbaycan Respublikasının Dövlət Himni. Musiqisi Üzeyir Hacıbəylinin, sözləri Əhməd Cavadındır. | Azərbaycan Respublikasının Dövlət Himni. Musiqisi Üzeyir Hacıbəylinin, sözləri Əhməd Cavadındır. | 1 saat |
| 5. | Kiçik summativ qiymətləndirmə | | | 1 saat |
| 6-7. | Fortepiano aləmi | “Tut məni, tut”. Musiqisi Asya Sultanovanın, sözləri Teymur Elçinindir. | “Kuklaların yürüşü”. Musiqisi Asəf Zeynallınındır. | 2 saat |
| 8. | Marş | “Sülh marşı”. Musiqisi Sevda İbrahimovanın, sözləri Teymur Elçinindir. | “Bayram günü”. Musiqisi Üzeyir Hacıbəylinin, sözləri Mirmehdi Seyidzadənindir. | 1 saat |
| 9. | Azərbaycan xalq rəqsləri | “Mahnı və rəqs”. Musiqisi Cahangir Cahangirovun, sözləri Mirmehdi Seyidzadənindir. | “Naz eləmə”. Azərbaycan xalq rəqsi. | 1 saat |
| 10. | Ritmsiz musiqi yoxdur | “Nağara”. Musiqisi Oqtay Zülfüqarovun, sözləri Abdulla Şaiqindir. | “Nəlbəki”. Azərbaycan xalq rəqsi | 1 saat |
| 11. | Kiçik summativ qiymətləndirmə | | | 1 saat |
| 12. | Təbiət və musiqi | “Fəsillər”. Musiqisi Məryəm Əlibəylinin, sözləri Sevinc Nuruqızınındır. | “Payız”. Musiqisi Rəşid Şəfəqin, sözləri Əjdər Ağayevindir. | 1 saat |
| 13. | Can nənə, bir nağıl de | “Nənəm nağıl danışır”. Musiqisi Sevda İbrahimovanın, sözləri Nəbi Xəzrinindir. | “Göyçək Fatma”. “Fatmanın mahnısı”. Musiqisi Oqtay Rəcəbovun, sözləri Mirvari Dilbazinindir. | 1 saat |
| 14. | Qış gəlibdir, qış gəlib | “Qar rəngi, duman rəngi”. Musiqisi Reyhan Hacızadənin, sözləri Ülvi Hisslərindir. | “Qış mahnısı”. Musiqisi Əfsər Cavanşirovun, sözləri Tofiq Mütəllibovundur. | 1 saat |
| 15. | Gəzinti | “İdman”. Musiqisi Oqtay Zülfüqarovun, sözləri Teymur Elçinindir. | Zərb alətlərində müxtəlif templi ritmlər. | 1 saat |
| 16. | Musiqi notlarını tanıyaq. Sinif konserti | | | 1 saat |
| 17. | Kiçik summativ qiymətləndirmə | | | 1 saat |

LAYİHƏ

| Dərs | Dərsin mövzusu | Vokal-xorla oxuma (bəstəkar, şair) | Dinləmə | Dərs saatı |
|---|---|---|---|---|
| 18. | Azərbaycan xalq çalğı alətləri | “Tarımın mahnıları”. Musiqisi Oqtay Zülfüqarovun, sözləri Hikmət Ziyanındır. | Tar, kamança, dəf alətlərində çalınan musiqi nümunələri | 1 saat |
| 19. | Musiqidə iki lad | “Qırmızı şar”. Musiqisi Ağabacı Rzayevanın, sözləri Cahangir Məmmədovundur. | Musa Mirzəyev. “Şən və qəmli mahnı”. Fortepiano əsəri | 1 saat |
| 20. | Laylalar | “Laylay”. Azərbaycan xalq mahnısı | “Laylay”. Fikrət Əmirovun fortepiano pyesi | 1 saat |
| 21. | Əziz ana, şirinsözlü ana | “Anacan”. Musiqisi Rəşid Şəfəqin, sözləri Rəfiq Zəkanındır. | “Ana”. Musiqisi Cahangir Cahangirovun, sözləri İslam Səfərlinindir. | 1 saat |
| 22. | Kiçik summativ qiymətləndirmə | | | 1 saat |
| 23. | Çiçəkli yaz | “Qaranquş”. Musiqisi Ağabacı Rzayevanın, sözləri Teymur Elçinindir. | “Mən baharın qızıyam”. Musiqisi Ələkbər Tağıyevin, sözləri Zivər Ağayevanındır. | 1 saat |
| 24. | Baharı qarşılayaq | “Bahar gəlir”. Musiqisi Fikrət Əmirovun, sözləri Zeynal Cabbarzadənindir. | “Yallı” Azərbaycan xalq rəqsi | 1 saat |
| 25. | Novruz bayramı | “Novruz bayramı”. Musiqisi Rəşid Şəfəqin, sözləri Sabir Mustafanındır. | “Novruzu” Azərbaycan xalq rəqsi | 1 saat |
| 26. | Mənim Azərbaycanım | “Azərbaycan–Türkiyə”. Musiqisi Cavanşir Quliyevin, sözləri Bəxtiyar Vahabzadənindir. | “Qarabağ”. Musiqisi Cahangir Cahangirovun, sözləri Rəfiq Zəkanındır. | 1 saat |
| 27. | Kiçik summativ qiymətləndirmə | | | 1 saat |
| 28. | Səslənən şəkillər | “Tapın görək”. Musiqisi Oqtay Zülfüqarovun, sözləri Teymur Elçinindir. | “Ana Kürüm” aşıq mahnısı. “Əsgər marşı”. Musiqisi Cavanşir Quliyevin, sözləri Əli Kaminindir. “Brilyant” Azərbaycan xalq rəqsi. | 1 saat |
| 29. | Sehrli çubuq | “Azərbaycan əsgəri”. Musiqisi Reyhan Hacızadənin, sözləri Ülvi Hisslərindir. | Üzeyir Hacıbəyli. “Koroğlu”operasından “Cəngi” rəqsi | 1 saat |
| 30-31. | Kukla teatrı | “Balaca keçilərin kupletləri”. Musiqisi Sərdar Fərəcovun, libret-tosu Hüseynağa Atakişiyevindir. | “Şəngülüm, Şüngülüm, Məngülüm” tamaşasından bir hissə | 2 saat |
| 32. | Musiqini yaradan in-tonasiya | “İkincilərik biz”. Musiqisi Oqtay Rəcəbovun, sözləri Əjdər Ağayevindir. | “Çobanın mahnısı”. Musiqisi Oqtay Zülfüqarovun, sözləri Ab-dulla Şaiqindir. | 1 saat |
| 33. | Musiqi alətlərinin sehrli səsləri. Sinif konserti | | | 1 saat |
| 34. | Kiçik summativ qiymətləndirmə | | | 1 saat |

LAYİHƏ

## FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ İNTEQRASİYA CƏDVƏLİ

| | | | Məzmun standartları | | Fəndaxili inteqrasiya | | | | Fənlərarası inteqrasiya | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | № | Mövzusu | 1.1. | 1.2. | 2.1. | 3.1. | 3.2. | 3.3. | A.d. | Riy. | H.b. | T.i. | F.t. |
| I Bölmə Azərbaycan mənim Vətənimdir | 1. | Melodiya | 1.1.3. | | 2.1.1. | | 3.2.3. | 3.3.2. | | | 1.1.1. | | |
| | 2. | Mahnıda söz | 1.1.2. | | 2.1.3. | 3.1.2. | | 3.3.1. | 1.2.3. | | | | |
| | 3. | Salam, mənim Vətənim! | 1.1.2. | | 2.1.2. | | | 3.3.2. | | | 1.2.1. | 2.1.1. | |
| | 4. | Himn | 1.1.2. | | 2.1.1. | 3.1.1. | | | 2.2.5. | | 2.3.1. | | |
| | 5. | Kiçik summativ qiymətləndirmə | | | | | | | | | | | |
| II Bölmə Sehrli dünya | 6.<br>7. | Fortepiano aləmi | 1.2.1. | | 2.1.1. | | 3.2.3.<br>3.2.1. | 3.3.1. | | | 3.1.1. | | |
| | 8. | Marş | | 1.2.1. | 2.1.2. | | 3.1.1. | | | 4.1.1. | | | 2.1.1. |
| | 9. | Azərbaycan xalq rəqsləri | 1.2.1. | | 2.1.1. | 3.1.1. | | | | | | | 3.1.2. |
| | 10. | Ritmsiz musiqi yoxdur | 1.2.2. | | 2.1.2. | | | 3.3.2. | | | | | 3.1.1. |
| | 11. | Kiçik summativ qiymətləndirmə | | | | | | | | | | | |

LAYİHƏ

| | | | Məzmun standartları | | Fəndaxili inteqrasiya | | | | Fənlərarası inteqrasiya | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | № | Mövzusu | 1.1. | 1.2. | 2.1. | 3.1. | 3.2. | 3.3. | A.d. | Riy. | H.b. | T.i. | F.t. |
| III Bölmə Qızılı payız | 12. | Təbiət və musiqi | 1.1.1. | | 2.1.3. | 3.1.1. | | | | 2.1.3. | | | |
| | 13. | Can nənə, bir nağıl de | | 1.2.1. | 2.1.3. | 3.1.1. | | | 1.2.1. | | 3.2.1. | | |
| | 14. | Qış gəlibdir, qış gəlib | 1.1.3. | | 2.1.1. | | 3.3.2. | | | | 1.4.2. | | |
| | 15. | Gəzinti | | 1.2.1. | 2.1.3. | 3.2.2. | | | 1.2.1. | | 3.2.1. | | |
| | 16. | Musiqi notlarını tanıyaq KSQ | | | | | | | | | | | |
| | 17. | Sinif konserti | | | | | | | | | | | |
| IV Bölmə İfadəli musiqi aləmi | 18. | Azərbaycan xalq çalğı alətləri | | 1.2.2. | 2.1.1. | 3.1.1. | | | 1.2.1. | | | | |
| | 19. | Musiqidə iki lad | | 1.2.1. | 2.1.1. | 3.1.2. | | 3.3.1. | 2.1.2. | | | | |
| | 20. | Laylalar | 1.1.3. | | 2.1.1. | | | 3.3.2. | | | 2.1.3. | | |
| | 21. | Əziz ana, şirinsözlü ana | | 1.2.3. | 2.1.3. | | 3.2.3. | | | | 2.1.3. | | |
| | 22. | Kiçik summativ qiymətləndirmə | | | | | | | | | | | |

LAYİHƏ

| | | | Məzmun standartları | | Fəndaxili inteqrasiya | | | | Fənlərarası inteqrasiya | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | № | Mövzusu | 1.1. | 1.2. | 2.1. | 3.1. | 3.2. | 3.3. | A.d. | Riy. | H.b. | T.i. | F.t. |
| V Bölmə Axar sular aşıb-daşır | 23. | Çiçəkli yaz | 1.1.1. | | 2.1.3. | | 3.2.2. | | | | | 3.1.1. | |
| | 24. | Baharı qarşılayaq | | 1.2.3. | 2.1.1. | 3.1.1. | | | | | 1.3.1. | | 2.1.1. |
| | 25. | Novruz bayramı | 1.1.1. | | 2.1.1. | 3.1.2. | | 3.3.2. | | | | 3.1.1. | |
| | 26. | Mənim Azərbaycanım | | 1.2.1. | 2.1.2. | 3.1.2. | | 3.3.2. | | | 3.2.2. | | |
| | 27. | Kiçik summativ qiymətləndirmə | | | | | | | | | | | |
| VI Bölmə Teatr aləmi | 28. | Səslənən şəkillər | | 1.2.1. | 2.1.3. | 3.1.1. | 3.2.1. | | | | | 3.1.1. | |
| | 29. | Sehrli çubuq | | 1.2.2. | 2.1.3. | 3.1.1. | | 3.3.3. | | 4.2.3. | 3.2.1. | | 3.1.1. |
| | 30. 31. | Kukla teatrı | 1.1.3. | | 2.1.1. | | | 3.3.3. | 2.2.5. | | | | |
| | 32. | Musiqini yaradan intonasiya | | 1.2.2. | 2.1.3. | | | 3.3.2. | 2.1.1 | | | | |
| | 33. | Musiqi alətlərinin sehrli səsləri KSQ | | | | | | | | | | | |
| | 34. | Sinif konserti | | | | | | | | | | | |

LAYİHƏ

**II sinfin sonunda şagird:**

• ifa etdiyi və dinlədiyi musiqi əsərlərini tanıdığını nümayiş etdirir.

• əsas musiqi janrları, musiqi ifadə vasitələri və musiqi əsərlərinin quruluşu haqda təsəvvürə malik olduğunu nümayiş etdirir;

• dinlədiyi musiqi əsərlərində ifadə olunan məzmunu başa düşdüyünü nümayiş etdirir;

• xor tərkibində ifa bacarıqları nümayiş etdirir;

• sadə uşaq musiqi alətlərində ifa bacarıqlarını nümayiş etdirir;

• mahnı ifaçılığı qaydalarını mənimsədiyini nümayiş etdirir.

**Məzmun xətləri üzrə əsas və alt standartlar**

**1. Musiqi aləmi**

**Şagird:**

**1.1. İfa etdiyi və dinlədiyi musiqi əsərlərini tanıdığını nümayiş etdirir.**

1.1.1. Dinlədiyi və ifa etdiyi əsərlərin bəstəkarları haqqında qısa məlumat verir.

1.1.2. Dinlədiyi musiqi əsərinin müəllifini tanıyır.

1.1.3. Uşaq mahnıları haqqında qısa məlumat verir.

**1.2. Əsas musiqi janrları, musiqi ifadə vasitələri və musiqi əsərlərinin sadə quruluşu haqda təsəvvürə malik olduğunu nümayiş etdirir.**

1.2.1. Dinlədiyi musiqi əsərləri içərisində mahnı, rəqs, marş janrlarını müəyyən edir.

1.2.2. Müxtəlif janrlı musiqi əsərlərində sadə ifadə vasitələrini (ölçü, ritm, temp) müəyyən edir.

1.2.3. Dinlədiyi musiqi əsərlərinin quruluşunu (1, 2, 3 hissəli) müəyyənləşdirir.

**2. Emosional dəyərləndirmə**

**Şagird:**

**2.1. Dinlədiyi musiqi əsərlərində ifadə olunan məzmunu qavradığını nümayiş etdirir.**

2.1.1. Musiqi əsərinin müxtəlif məzmunlu emosional xarakterini izah edir.

2.1.2. İfa etdiyi mahnıların melodiyalarına sadə vasitələrlə (ayaq tappıltısı, əl çalmaq, çırtma) ritm tutur.

2.1.3. Verilmiş musiqi nümunələrini xarakterinə uyğun ifa edir.

**3. Musiqi fəaliyyəti**

**Şagird:**

**3.1. Xor tərkibində ifa bacarıqlarını nümayiş etdirir.**

3.1.1. Müəllimin göstərişilə mahnıların melodiyasını sözlərilə və notlarla oxuyur.

3.1.2. Xor tərkibində 2 səsli (kanon) oxuyur.

**3.2. Sadə uşaq musiqi alətlərində ifa bacarıqlarını nümayiş etdirir.**

3.2.1. Oktavadakı 8 səsi 2 hissəyə ayıraraq (4 və 4) uşaq musiqi alətlərində ardıcıl olaraq notla və notsuz çalır.

3.2.2. Uşaq zərb alətləri vasitəsilə müxtəlif musiqi kompozisiyalarını müşayiət edir.

3.2.3. Uşaq musiqi alətində 4-8 xanəli sadə melodiyaları ansambl (qrup şəklində) şəklində notla və notsuz ifa edir.

**3.3. Mahnı ifaçılığı qaydalarını mənimsədiyini nümayiş etdirir.**

3.3.1. Mahnının ladının (major və minor) dinamik nüanslarla (mp, mf) düzgün səslənməsinə riayət edir.

3.3.2. Mahnını ritminə və tempinə uyğun oxuyur.

3.3.3. Öz ifasını 2/4, 3/4 ölçülü dirijorluq hərəkətləri ilə göstərə bilir.

LAYİHƏ

## I BÖLMƏ
## AZƏRBAYCAN MƏNİM VƏTƏNİMDİR

### 1-ci dərs
### Dərsin mövzusu: “MELODİYA”

**Məzmun standartları:** 1.1.3.; 2.1.1.; 3.2.3.; 3.3.2.
**İnteqrasiya:** H.b. 1.1.1.







**MƏQSƏD:** Melodiyanın musiqi səslərindən yarandığını başa düşür. Eyni zamanda şagird təbiətdə musiqi səsləri ilə bərabər “şimşəyin gurultusu”, “yağışın şırıltısı”, “küləyin vıyıltısı”, “dənizin uğultusu” kimi səslərin olduğunu anlayır.

**İş üsulu:** Beyin həmləsi, diskussiya, Venn diaqramı
**Dərsin mərhələləri:**
**1. Motivasiya**

Problem vəziyyəti yaratmaq üçün məqsəddə göstərilən təbiət səsləri internetdən seçilərək şagirdin diqqətinə çatdırılır və sinfə sualla müraciət olunur:

– Uşaqlar, təsvirinə baxdığınız və təbiətdə dinlədiyiniz bu səsləri “musiqi səsləri” adlandırmaq olarmı?

– Şəkillərdə gördüyünüz bu təbiət hadisələrinin səslərini necə adlandırmaq olar?

– Nəyə görə bu səslər “təbiət səsləri” adlanır?

Şagirdlər sualları cavablandırırlar.

LAYİHƏ

**Tədqiqat sualı**

– Təbiət səsləri hansı təbiət hadisələri zamanı baş verir?

**2. Tədqiqatın aparılması**

Şagirdlər qruplara bölünür. Tək qruplar I və II şəkillərdəki hadisələr zamanı, cüt qruplarsa III və IV şəkillərdəki hadisələr zamanı səslər arasındakı oxşar və fərqli cəhətləri aydınlaşdırırlar.

**Tapşırıq:** Gördüyünüz təsvirlərə oxşar şəkillər çəkin.

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Biz öyrəndik ki, adətən şimşəyin gurultusundan sonra yağışın yağması, külək əsəndə ağacların budaqlarının güclü hərəkəti, küləyin təsiri ilə dənizin dalğalanması zamanı eşidilən səslər qeyri-musiqi səsləridir.

**4. Nəticə və ümumiləşdirmə**

Şimşək çaxmasa, yağış yağmaz. Külək olmasa, ağacların budaqları tərpənməz, dənizdə dalğalar yaranmaz, yəni təbiət səsləri eşidilməz.

**5. Yaradıcı tətbiqetmə**

Musiqisi Qəmbər Hüseynliyə, sözləri Tofiq Mütəllibova məxsus olan "Cücələrim" mahnısı əvvəlcə dinlənilir, onun ritminə uyğun əl çalınır və sonra da "la" hecası ilə ifa olunur. Müəllim deyir ki, oxuduğunuz bu musiqi "Cücələrim" mahnısının "melodiyası" adlanır.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Hansı səslərin "təbiət" və hansı səslərin "musiqi səslərinə" aid olduğunu müəyyənləşdirdik.

– Bunu hansı musiqi əsərinin nümunəsində və təbiət səsləri nümunələrində araşdırdıq?

**Musiqi repertuarı:**

"Cücələrim" mahnısı

LAYİHƏ

**2-ci dərs**
**Dərsin mövzusu: "MAHNIDA SÖZ"**

**Məzmun standartları:** 1.1.2.; 2.1.3.; 3.1.2; 3.3.1.
**İnteqrasiya:** A.d. 1.2.3.







**MƏQSƏD:** Mahnının yaranmasında bəstəkarın və şairin rolunu müəyyənləşdirir.

**İş üsulu:** Beyin həmləsi, müzakirə, rəsm assosiasiyası
**Dərsin mərhələləri:**
**1. Motivasiya**

Problem vəziyyəti yaratmaq üçün şair Tofiq Mütəllibovun, bəstəkar Qəmbər Hüseynlinin və cücələrin şəkilləri ekran vasitəsilə uşaqlara göstərilir. Uşaqlara aydınlaşdırılır ki, onların bu vaxta qədər oxuduqları mahnılar şair və bəstəkarların birgə əməyi nəticəsində yaranmışdır. Yəni əvvəlcə şair şeir yazır, sonradan bəstəkar bu şeirin məzmununa, xarakterinə uyğun melodiya bəstələyir. Yaranmış musiqi əsərinə "mahnı" deyilir. Sizin I dərsdə dinlədiyiniz və "la" hecası ilə melodiyasını oxuduğunuz mahnının eyni zamanda sözləri də vardır. Yəni mahnı söz və melodiyanın birləşməsindən yaranır. Bu mahnının sözlərini – ekranda şəklini gördüyünüz şair Tofiq Mütəllibov yazmış, melodiyasını isə yenə ekranda şəklini gördüyünüz bəstəkar Qəmbər Hüseynli bəstələmişdir. Mahnının adı "Cücələrim"dir.

LAYİHƏ

**Tədqiqat sualı**

– Mahnılar necə yaranır?

**2. Tədqiqatın aparılması**

Sinif qruplara bölünür.

**Tapşırıq:** I qrup mahnının yaranmasında şairin, II qrup isə bəstəkarın rolunu müəyyənləşdirir.

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Mahnıda musiqi ilə mətn arasındakı əlaqə mövzusunda fikir mübadiləsi və müzakirəsi aparılır.

**4. Nəticə və qiymətləndirmə**

Burdan belə nəticəyə gəlirik ki, mahnı melodiya və sözün birləşməsindən yaranır.

**5. Yaradıcı tətbiqetmə**

Musiqisi Qəmbər Hüseynliyə, sözləri Tofiq Mütəllibova məxsus olan "Cücələrim" mahnısının melodiyası sözləri ilə birlikdə öyrədilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Biz mahnıların necə yarandığını müəyyənləşdirdik. Buna necə nail olduq?

– İfa etdiyimiz mahnının müəlliflərinin adlarını söyləyin.

Musiqi dinləmə mərhələsində "Sülh göyərçiniyik biz" mahnısı dinlənilir.

**Musiqi repertuarı:**

"Sülh göyərçiniyik biz" mahnısı

"Cücələrim" mahnısı

LAYİHƏ

**3-cü dərs**
**Dərsin mövzusu: “SALAM, MƏNİM VƏTƏNİM!”**

**Məzmun standartları:** 1.1.2.; 2.1.2.; 3.3.2.
**İnteqrasiya:** H.b. 1.2.1.; T.i. 2.1.1.







**MƏQSƏD:** Azərbaycana, onun xalqına, torpaqlarına həsr olunmuş xalq musiqi nümunələri (xalq mahnıları, aşıq mahnıları) vasitəsilə şagirdlərdə vətənpərvərlik hissləri oyanır, bu hisslər formalaşır və inkişaf edir.

**İş üsulu:** Beyin həmləsi, müzakirə
**Dərsin mərhələləri:**
**1. Motivasiya**

Problem vəziyyəti yaratmaq üçün sözləri və musiqisi Azərbaycanın Xalq artisti Xan Şuşinskiyə məxsus olan “Şuşanın dağları” mahnısı səsləndirilir. Ekranda doğma Şuşa şəhərimizin mənzərələri göstərilir. Sonra Xan Şuşinskinin şəkli göstərilir.

Eyni zamanda mahnının səsləndiyi müddətdə Azərbaycan Respublikasının xəritəsi də şagirdlərin diqqətinə çatdırılır. Sonra sinfə belə suallar verilir.

– Uşaqlar, mahnıda nədən danışılır?
– Mahnı oynaq, yoxsa marş xarakterindədir?

Suala mümkün cavablar alındıqdan sonra tədqiqat sualı verilir.

**Tədqiqat sualı**

– Mahnıda musiqi ilə şeir arasında hansı uyğunluq var?

LAYİHƏ

**2. Tədqiqatın aparılması**

Şagirdlər qruplara bölünürlər.

**Tapşırıq:** Tək qruplarda mahnının melodiyası “stakkato”, cüt qruplarda həzin oynaq “leqato” üslubunda ifa olunur.

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Mahnıda musiqi ilə şeir arasında olan uyğunluq haqqında mübadilə və müzakirə aparılır.

**4. Nəticə və ümumiləşdirmə**

Mahnılarda musiqinin xarakteri şeirin xarakterinə uyğun olmalıdır. Məzmun dəyişsə, mahnının xarakteri də dəyişməlidir.

**5. Yaradıcı tətbiqetmə**

Not yazısı Səid Rüstəmova, sözləri Səməd Vurğuna aid olan “Azərbaycan” aşıq mahnısı öyrədilir və saz aşıq musiqi aləti haqqında sadə məlumat verilir və şəkli göstərilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz “Mahnıda musiqi ilə mətnin arasında uyğunluq” olmalıdırmı sualına cavab verməyə çalışdıq. Buna necə nail olduq?

– Sualın cavabını hansı musiqi əsərlərinin nümunələrində araşdırdıq? Bu əsərlərin müəllifləri kimdir?

**Musiqi repertuarı:**

“Şuşanın dağları” xalq mahnısı

“Azərbaycan” aşıq mahnısı

LAYİHƏ

## 4-cü dərs
## Dərsin mövzusu: “HİMN”

**Məzmun standartları:** 1.1.2.; 2.1.1.; 3.1.1.
**İnteqrasiya:** A.d. 2.2.5.; H.b. 2.3.1.







**MƏQSƏD:** Azərbaycan Respublikasının Dövlət Himni və himnin müəllifləri haqqında məlumat verir.

**İş üsulu:** Beyin həmləsi, müzakirə
**Dərsin mərhələləri:**
**1. Motivasiya**

Problem vəziyyəti yaratmaq üçün musiqisi bəstəkar Üzeyir Hacıbəyliyə, sözləri şair Əhməd Cavada məxsus olan Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilir. Bundan sonra müəllim hər bir dövlətin 3 müqəddəs rəmzi olan “Bayraq”, “Gerb”, “Himn” haqqında uşaqlara məlumat verir və onların şəklini göstərir.

Bundan sonra uşaqlara belə suallarla müraciət olunur:
1. Himn nədir?
2. Daha hansı dövlət rəmzlərini tanıyırsınız?
3. Eşitdiyiniz himnin musiqisi və sözləri haqqında nə deyə bilərsiniz?

Şagirdlər öz səviyyələrinə uyğun cavab verirlər.

**Tədqiqat sualı**

– Dinlədiyiniz Azərbaycan Respublikasının Dövlət Himni sizə necə təsir etdi?

LAYİHƏ

**2. Tədqiqatın aparılması**

Cütlərlə iş.

**Tapşırıq:** Himnin şagirdlərə təsiri haqqında fikirlərinizi yazın və Azərbaycan bayrağının şəklini çəkin.

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Himn 3 hissədən ibarətdir. Azərbaycan Respublikasının Dövlət Himnini dinləyərkən şagirdlərə necə təsir etməyi haqqında müzakirə aparılır.

**4. Nəticə və ümumiləşdirmə**

Dinlənilən himn insanda mərdlik, qürur, vətənpərvərlik hissləri yaradır.

**5. Yaradıcı tətbiqetmə**

Musiqisi Üzeyir Hacıbəyliyə, sözləri Əhməd Cavada məxsus olan Azərbaycan Respublikasının Dövlət Himni müəllim tərəfindən frazalarla, cümlələrlə şagirdlərə öyrədilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir.

– Bu gün biz “Himn” haqqında fikir mübadiləsi apardıq və bizə məlum oldu ki, planetimizdəki bütün dövlətlərin, o cümlədən bizim doğma Azərbaycanımızın da “Himni” var. Buna necə nail olduq?

– Mövzunu aydınlaşdırmaq üçün hansı musiqi nümunəsindən istifadə etdik? Bu əsərin müəllifləri kimdir?

**Musiqi repertuarı:** Azərbaycan Respublikasının Dövlət Himni

**5-ci dərs**
**“KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ”**
**Bu dərsdə 1–4-cü dərslərdə şagirdlərin mövzuları necə mənimsədikləri fənn müəlliminin tərtib etdiyi test sualları vasitəsi ilə yoxlanılır.**

LAYİHƏ

## 6–7-ci dərs
## Dərsin mövzusu: “FORTEPİANO ALƏMİ”

**Məzmun standartları:** 1.2.1.; 2.1.1.; 3.2.1.; 3.2.3.; 3.3.1
**İnteqrasiya:** H.b. 3.1.1.







**MƏQSƏD:** Fortepiano musiqi aləti, onun adının forte (güclü), piano (zəif) sözlərindən yarandığı haqqında məlumatlanır.

**İş üsulu:** Beyin həmləsi, diskussiya, rəsm assosiasiyası
**Dərsin mərhələləri:**
**1. Motivasiya**

Problem vəziyyəti yaratmaq üçün bəstəkar Asəf Zeynallının fortepiano aləti üçün yazdığı “Kuklaların yürüşü” fortepiano pyesi səsləndirilir. Dərslikdə bu əsərə aid şəklin məzmunu və musiqinin xarakteri arasındakı uyğunluq haqqında diskussiya aparılır.

Şagirdlər bu suala cavab verirlər.

**Tədqiqat sualı**

– Dinlədiyiniz bu musiqi hansı musiqi alətində ifa edilir?

**2. Tədqiqatın aparılması**

**Fərdi iş:**

Bəstəkar Asəf Zeynallının “Kuklaların yürüşü” fortepiano pyesi təkrar səsləndirilir, həm də əsərin müəllifi haqqında qısa məlumat verilir.

LAYİHƏ

**Tapşırıq:** Əsəri təkrar dinlədikdən sonra onun xarakterinə və məzmununa uyğun şəkil çəkmək və bu şəkillərə izah vermək tapşırılır.

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

"Kuklaların yürüşü" fortepiano pyesini başqa hansı musiqi alətlərində ifa etmək mümkündür? Bu haqda diskussiya aparılır.

**4. Nəticə və ümumiləşdirmə**

Biz öyrəndik ki, fortepiano alətində ifa üçün bəstələnmiş əsəri digər musiqi alətində də ifa etmək mümkündür.

**5. Yaradıcı tətbiqetmə**

Musiqisi Asya Sultanovaya, sözləri Teymur Elçinə məxsus olan "Tut məni, tut" mahnısı öyrədilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu dərsdə biz marş janrına aid müxtəlif xarakterli musiqi nümunələri ilə tanış olduq. Buna necə nail olduq? Bu əsərlərin müəlliflərinin adlarını söyləyin.

**Musiqi repertuarı:**

"Tut məni, tut" mahnısı

"Kuklaların yürüşü" fortepiano pyesi

LAYİHƏ

**8-ci dərs**
**Dərsin mövzusu: “MARŞ”**

**Məzmun standartları:** 1.2.1.; 2.1.2.; 3.1.1.
**İnteqrasiya:** Riy. 4.1.1.; F.t. 2.1.1.







**MƏQSƏD:** Marş musiqisinin növlərini fərqləndirir.

**İş üsulu:** Beyin həmləsi, diskussiya
**Dərsin mərhələləri:**
**1. Motivasiya**

Problem vəziyyəti yaratmaq üçün bəstəkar Üzeyir Hacıbəylinin “Bayram günü” mahnısını dinləyirlər və belə bir sualla şagirdlərə müraciət edilir.

– Dinlədiyiniz mahnının xarakteri necədir?
– Bu tipli marşdan əlavə, daha hansı marşları tanıyırsınız?

Şagirdlər sualları cavablandırırlar.

**Tədqiqat sualı**

– Marşlar bir-birindən necə fərqlənir?

**2. Tədqiqatın aparılması**

Sinif 2 qrupa bölünür. Tək qruplara “Bayram günü” mahnısını idmançılar üçün, cüt qruplara isə məktəblilər üçün marş kimi öz hərəkətləri ilə təsvir etmək tapşırılır.

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Marşlarda müxtəlif xarakterlərin olmasını dəqiqləşdirir.

LAYİHƏ

**4. Nəticə və ümumiləşdirmə**

Məzmununa və xarakterinə görə müxtəlif marşlar olur.

**5. Yaradıcı tətbiqetmə**

Bəstəkar Sevda İbrahimovanın və şair Teymur Elçinin "Sülh marşı" mahnısı öyrədilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz marşların fərqləndirilməsi necə aparılır sualına cavab verməyə çalışdıq. Buna necə nail olduq?

– Sualı aydınlaşdırmaq üçün hansı musiqi əsərlərindən istifadə etdik? Əsərlərin müəllifləri kimdir?

**Musiqi repertuarı:**

"Bayram günü" mahnısı

"Sülh marşı" mahnısı

LAYİHƏ

## 9-cu dərs
## Dərsin mövzusu: "AZƏRBAYCAN XALQ RƏQSLƏRİ"

**Məzmun standartları:** 1.2.1.; 2.1.1.; 3.1.1.
**İnteqrasiya:** F.t. 3.1.2..







**MƏQSƏD:** Janrları müqayisə edir; musiqi əsərlərinin emosional məzmununu onun mövzusu ilə əlaqələndirir.

**İş üsulu:**
Beyin həmləsi, diskussiya, rəsm assosiasiyası
**Dərsin mərhələləri:**
**1. Motivasiya**
Problem vəziyyəti yaratmaq üçün "Naz eləmə" Azərbaycan xalq rəqsi səsləndirilir. Daha sonra müəllim Azərbaycan xalq rəqsləri haqqında məlumat verir.
**Tədqiqat sualı**
– Rəqs mahnının yaranmasına təsir göstərə bilərmi?
**2. Tədqiqatın aparılması**
Sinif qruplara bölünür. Hər iki qrupa müxtəlif xarakterli rəqs təsvirləri olan iş vərəqləri paylanılır.
**Tapşırıq:** Verilmiş şəkillərə uyğun rəqsləri yada salmaq və seçimi əsaslandırmaq.
**3. İnformasiya mübadiləsi və müzakirəsi**
Rəqslərin müxtəlif olmaları dəqiqləşdirilir.

LAYİHƏ

**4. Nəticə və ümumiləşdirmə**

Rəqslərin müxtəlifliyi onların məzmunundan asılıdır.

**5. Yaradıcı tətbiqetmə**

Rəqs janrından yalnız rəqs etmək üçün deyil, eyni zamanda mahnılarda da istifadə etmək mümkündür. Bəstəkar Cahangir Cahangirovun və şair Mirmehdi Seyidzadənin "Mahnı və rəqs" mahnısı öyrədilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz rəqslərin mahnı janrının yaranmasına təsirini öyrənməyə çalışdıq.
– Buna necə nail olduq?
– Dərs prosesində hansı rəqs xarakterli musiqi nümunələrini dinlədik?
– Bu əsərlərin müəllifləri kimdir?

**Musiqi repertuarı:**

"Naz eləmə" Azərbaycan xalq rəqsi
"Mahnı və rəqs" mahnısı

LAYİHƏ

**10-cu dərs**
**Dərsin mövzusu: “RİTMSİZ MUSİQİ YOXDUR”**

**Məzmun standartları:** 1.2.2.; 2.1.2.; 3.3.2.
**İnteqrasiya:** F.t. 3.1.1.


9

Ritmsiz musiqi yoxdur

Bütün canlıların və cansızların həyatında ritm olduğu kimi, musiqidə də müxtəlif **ritmlər** var.



*Nəlbəki*
*Azərbaycan xalq rəqsi*

**RİTM** – müəyyən zaman daxilində müxtəlif ölçülü səslərin ardıcıl səslənməsidir.

"Nəlbəki" rəqsini qızlar ifa edir. İfa zamanı əllərin 3-cü barmağına üskük taxılır. Rəqs üsküyü nəlbəkiyə toxundurmaqla ifa edilir.

22


9

*Nağara*
*Musiqisi Oqtay Zülfüqarovun, sözləri Abdulla Şaiqindir.*

I
Nağaranı çalıram,
Dum-bolo-bom, dum-bolo-bom.
Hər yana səs salıram,
Dum-bolo-bom, dum-bolo-bom.
Hansı nağara çalır,
Dum-bolo-bom, dum-bolo-bom.
Hər yana o, səs salır,
Dum-bolo-bom, dum-bolo-bom.

*Nəqarət:*
Bax, böyük nağara çalır,
Dum-bolo-bom, dum-bolo.
Dom-dom-dom.
Balaca nağara çalır,
Dum-bolo-bom, dum-bolo.
Dom-dom-dom.

**Sual və tapşırıqlar**
1. Musiqidə ritm nədir?
2. "Nəlbəki" rəqsi hansı xalqa məxsusdur?
3. "Nağara" mahnısında nağaranın səsi hansı sözlərlə ifadə olunur?

23

**MƏQSƏD:** Musiqi əsərləri nümunəsində müxtəlif ritmləri fərqləndirir.

**İş üsulu:** Beyin həmləsi, diskussiya
**Dərsin mərhələləri:**
**1. Motivasiya**

Müəllim problem vəziyyəti yaratmaq üçün hər hansı bir zərb alətində “Nəlbəki” Azərbaycan xalq rəqsinin ritmini səsləndirir və şagirdlərə belə sualla müraciət edir:

– Uşaqlar, xalq rəqslərinin ritmində olan hansı mahnıları tanıyırsınız?

Uşaqların yadlarına saldıqları mahnılar müəllimin köməyi ilə “la” hecası ilə oxunulur. Bundan sonra müəllim qeyd edir ki, insanın həyatı ritmlə əlaqədardır. Bizi əhatə edən aləm, kosmos, okean, dənizlər və çaylarda da ritmlər var. Bu söhbətlər şəkilləri göstərməklə baş verir.

Şagirdlər suala cavab verdikdən sonra tədqiqat sualı qoyulur.

**Tədqiqat sualı**

– Musiqidə vurğular nə üçündür?

**2. Tədqiqatın aparılması**

Fərdi iş

LAYİHƏ

**Tapşırıq:** "Nəlbəki" rəqsi marş olsaydı, onun xarakteri necə olardı?

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Rəqslərdə ritm və ölçü anlayışları dəqiqləşdirilir. Bununla əlaqədar adları qeyd olunan musiqi nümunələri səsləndirilir.

**4. Nəticə və ümumiləşdirmə**

Müxtəlif musiqi nümunələrin ritmləri də müxtəlif olur.

**5. Yaradıcı tətbiqetmə**

Musiqisi bəstəkar Oqtay Zülfüqarova, sözləri Abdulla Şaiqə məxsus olan "Nağara" mahnısı öyrədilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz həyatımızda böyük rol oynayan ritm haqqında suala cavab verməyə çalışdıq. Bunun üçün hansı musiqi nümunələrindən istifadə etdik?

**Musiqi repertuarı:**

"Nağara" mahnısı

"Nəlbəki" rəqsi

**11-ci dərs**

**"KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ"**

**Bu dərsdə 6–10-cu dərslərdə şagirdlərin mövzuları necə mənimsədikləri fənn müəlliminin tərtib etdiyi test sualları vasitəsi ilə yoxlanılır.**

LAYİHƏ

**12-ci dərs**
**Dərsin mövzusu: “TƏBİƏT VƏ MUSİQİ”**

**Məzmun standartları:** 1.1.1.; 2.1.3.; 3.1.1.
**İnteqrasiya:** Riy. 2.1.3.


10

Təbiət və musiqi

Təbiətdə 4 fəsil var: payız, qış, yaz, yay. Şairlər bu fəsillər haqqında şeirlər yazıb, bəstəkarlar isə bu şeirlərə mahnılar bəstələyib.



*Payız*
*Musiqisi Rəşid Şəfəqin, sözləri Əjdər Ağayevindir.*

26


10

*Fəsillər*
*Musiqisi Məryəm Əlibəylinin, sözləri Sevinc Nuruqızınındır.*

I
Qaranquşlar qayıtdı
Eyvandakı yuvaya.
Bahar gəlib, Novruzu
Gətirdi el-obaya.
İlin dörd övladı var,
Biri bahardır, bahar.

II
Hərarətli qoynuna
Yenə aldı bizi yay.
Dedi: "Qonaq gəlmişəm,
Qalacağam düz üç ay".
İlin dörd övladı var,
Yayda kefim kök olar.

III
Payız gəldi, yarpaqlar
Oldu qızılı-sarı.
Dərildi bağçaların,
Bağların dadlı barı.
İlin dörd övladı var,
Payızda yağış yağar.

IV
Qondu qar dənələri
Kirpiyimə, qaşıma.
İsti əlcək geyindim,
Papaq qoydum başıma.
İlin dörd övladı var,
Qışda boran, qar olar.

**Sual və tapşırıqlar**
1. 1 bütöv not neçə yarım nota bərabərdir?
2. 1 bütöv notda neçə çərək not yerləşir?
3. Neçə səkkizlik not 1 bütöv nota bərabərdir?

27

**MƏQSƏD:** Təbiətdə olan 4 fəsildən (payız, qış, yaz, yay) danışır. Payız fəslinə aid olan mahnıların xarakteri haqqında məlumat verir.

**İş üsulu:** Beyin həmləsi, diskussiya
**Dərsin mərhələləri:**
**1. Motivasiya**

Təbiətin fəsillərindən biri olan payızda havaların soyuması, yağışın yağması, küləklərin əsməsi, ağacların yarpaqlarının saralıb tökülməsi haqqında qısa və aydın məlumatlar verdikdən sonra bəstəkar Rəşid Şəfəqin şair Əjdər Ağayevin sözlərinə bəstələdiyi “Payız” mahnısı səsləndirilir və uşaqlara belə sualla müraciət edilir.

– Uşaqlar, “Payız” mahnısının xarakteri necə idi? Şən, yoxsa qəmli?
– Payızda quşlar qatar-qatar hara uçub gedir?
Şagirdlər sualları cavablandırırlar.

**Tədqiqat sualı**
– Payızda təbiətdə nələr baş verir?

LAYİHƏ

**2. Tədqiqatın aparılması**

Sinif 2 qrupa bölünür.

**Tapşırıq:** I qrup payızda təbiətdə baş verən hadisələrdən, II qrup payız fəslində quşların nə etdiyindən danışır.

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Payız fəslində ağaclar yarpaqlarını tökdüyü, soyuq havalar başladığı, quşlar yuvalarını tərk edib isti ölkələrə köçdükləri üçün "Payız" mahnısının xarakteri də qəmlidir.

**4. Nəticə və ümumiləşdirmə**

"Payız" mahnısının xarakteri eyniadlı fəslin xüsusiyyətlərindən, məzmunundan asılıdır.

**5. Yaradıcı tətbiqetmə**

Musiqisi Məryəm Əlibəyliyə, sözləri Sevinc Nuruqızına məxsus olan "Fəsillər" mahnısı öyrədilir.

Bu dərsdə eyni zamanda bütöv, yarım, çərək və səkkizlik notlarla, alma meyvəsinin şəkillərindən istifadə etməklə məlumatlar verilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir.

– Bu gün biz fəsillər haqqında məlumat aldıq. Buna necə nail olduq?

**Musiqi repertuarı:**

"Payız" mahnısı

"Fəsillər" mahnısı

LAYİHƏ

## 13-cü dərs
## Dərsin mövzusu: “CAN NƏNƏ, BİR NAĞIL DE”

**Məzmun standartları:** 1.2.1.; 2.1.3.; 3.1.1.
**İnteqrasiya:** A.d. 1.2.1.; H.b. 3.2.1.



11

Can nənə, bir nağıl de

"Göyçək Fatma" nağılını uşaqlar çox sevir. Nağılın baş qəhrəmanı Göyçək Fatma çox ağıllı və zəhmətsevər qızdır.
Göyçək Fatma obrazını bəstəkar Oqtay Rəcəbov "Göyçək Fatma" nağıl-operasında təsvir edib. Operanın mətnini şair Mirvarid Dilbazi yazıb.

*Göyçək Fatma*
*Nağıl-operasından Fatmanın mahnısı*

28



11

*Nənəm nağıl danışır*
*Musiqisi Sevda İbrahimovanın, sözləri Nəbi Xəzrinindir.*

I
Bir sevinc var hər üzdə,
Nənəm nağıl danışır.
Uzanmışıq qum üstə,
Nənəm nağıl danışır.

II
Söyüd başını əyir,
İydə üzümə dəyir.
Çinar susub dinləyir,
Nənəm nağıl danışır.

III
Bax, ulduzlar göz vurur,
Ay başım üstə durur.
Onlar da sanki duyur,
Nənəm nağıl danışır.

**Sual və tapşırıqlar**
1. "Göyçək Fatma" nağıl-operası hansı xalq nağılı əsasında yazılıb?
2. YouTube üzərindən "Göyçək Fatma" nağıl-operasını dinləyin. Axtarış üçün açar sözlər: Oqtay Rəcəbov, "Göyçək Fatma", nağıl-opera.

29

**MƏQSƏD:** Melodiya və intonasiya haqqında biliklər möhkəmləndirilir.
Müxtəlif intonasiyaları fərqləndirir.

**İş üsulu:** Beyin həmləsi, diskussiya, rəsm assosiasiyası
**Dərsin mərhələləri:**
**1. Motivasiya**
Problem vəziyyəti yaratmaq üçün Oqtay Rəcəbovun “Göyçək Fatma” nağıl-operası əsasında çəkilmiş cizgi filmindən “Fatmanın mahnısı” səhnəsi şagirdlərin diqqətinə çatdırılır və uşaqlara suallar verilir:
– Uşaqlar, siz “Göyçək Fatma” nağılını bilirsinizmi?
– “Göyçək Fatma” cizgi nağıl-operasını televizorda görmüsünüzmü?
Uşaqlar bu suallar haqqında bildikləri cavabları verirlər.
**Tədqiqat sualı:**
– “Göyçək Fatmanın mahnısı”nın xarakteri necədir?
**2. Tədqiqatın aparılması**
“Göyçək Fatma”nın mahnısı bir daha səsləndirilir.
**Tapşırıq:** Sinif qruplara bölünür. I qrup Fatmanın mahnısının melodiyası, II qrup isə Fatmanın mahnısının intonasiyası haqqında şifahi təqdimat edir. Uşaqların əksəriyyəti mahnının şən xarakterə malik olduğunu söyləyir.

LAYİHƏ

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Hər bir musiqi əsərinin məzmununa uyğun xarakteri olur.

**4. Nəticə və ümumiləşdirmə**

Yazılı nitqdə olduğu kimi, musiqidə də ifadə vasitələri olur ki, bu da musiqinin müxtəlif xarakterli olmasına səbəb olur.

**5. Yaradıcı tətbiqetmə**

Sevda İbrahimovanın Nəbi Xəzrinin sözlərinə bəstələdiyi "Nənəm nağıl danışır" mahnısı öyrədilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz iki musiqi nümunəsi vasitəsilə musiqidə müxtəlif əhvali-ruhiyyəli, xarakterli melodiyaların olduğunu müəyyənləşdirdik. Bunun üçün hansı musiqi əsərlərindən istifadə etdik və onların müəlliflərinin adları nədir?

**Musiqi repertuarı**

"Göyçək Fatma" nağıl-operasından Fatmanın mahnısı

"Nənəm nağıl danışır" mahnısı

LAYİHƏ

**14-cü dərs**
**Dərsin mövzusu: “QIŞ GƏLİBDİR, QIŞ GƏLİB”**

**Məzmun standartları:** 1.1.3.; 2.1.1.; 3.3.2.
**İnteqrasiya:** H.b. 1.4.2.







**MƏQSƏD:** Qış fəslində uşaqların qarın yağmasından sevinc hisslərinin musiqidə özünü necə göstərməsini anlayır.

**İş üsulu:** Beyin həmləsi, diskussiya, rəsm assosiasiyası
**Dərsin mərhələləri:**
**1. Motivasiya**
Problem vəziyyəti yaratmaq üçün müəllim uşaqlara belə müraciət edir:
– Uşaqlar, qarın yağması hansı bayramın gəlməyindən xəbər verir?
– Adətən, yeni ildə insanları kim təbrik edir?
Uşaqlar yeni il bayramı və Şaxta baba haqqında öz fikirlərini söyləyirlər.
– Uşaqlar, gəlin, bəstəkar Əfsər Cavanşirovun şair Tofiq Mütəllibovun sözlərinə yazdığı “Qış mahnısı”nı dinləyək.
Mahnı dinlənildikdən sonra lövhədən qış fəslinə uyğun şəkillər asılır və müəllim şagirdlərə mahnının xarakterinin, məzmununun nədən ibarət olduğu haqqında fikir söyləməyi tapşırır. Şagirdlər mahnının melodiyasının şən, rəqs xarakterində olması və mahnının sözlərində uşaqların qarın yağmasına sevinməklərinin əks olunduğunu söyləyirlər.

LAYİHƏ

**Tədqiqat sualı**
– Uşaqlar, dinlədiyiniz musiqi hansı janra uyğundur?
**2. Tədqiqatın aparılması**
Sinif qruplara bölünür:
I qrupa uşaqların qartopu oynadıqları, II qrupa uşaqların xizək sürdükləri, III qrupa isə oyuncaqların rəqsi olduğu şəkillər paylanır.
**Tapşırıq:** 1. Verilmiş şəkillərə uyğun rəqs və mahnıları yada salmaq və onları əsaslandırmaq. 2. Dinlənilən mahnının xarakterini və janrını müəyyənləşdirmək.
**3. İnformasiya mübadiləsi və müzakirəsi**
Rəqslərin müxtəlif olması dəqiqləşdirilir.
**4. Nəticə və ümumiləşdirmə**
Rəqslərin müxtəlifliyi onların məzmunundan asılı olaraq dəyişir.
**5. Yaradıcı tətbiqetmə**
Musiqisi Reyhan Hacızadəyə, sözləri Ülvi Hisslərə aid olan "Qar rəngi, duman rəngi" mahnısı öyrədilir.
**Qiymətləndirmə və ya refleksiya**
Dərs ümumiləşdirilir:
– Bu gün biz mahnı-rəqs kimi bir musiqi janrı ilə tanış olduq. Buna necə nail olduq və hansı musiqi nümunələrindən istifadə etdik?
**Musiqi repertuarı:**
"Qış mahnısı"
"Qar rəngi, duman rəngi" mahnısı

LAYİHƏ

**15-ci dərs**
**Dərsin mövzusu: “GƏZİNTİ”**

**Məzmun standartları:** 1.2.1.; 2.1.3.; 3.2.2.
**İnteqrasiya:** A.d. 1.2.1.; H.b. 3.2.1.


13
Gəzinti
İnsan gəzir, qaçır, idmanla və rəqslə məşğul olur. Musiqidə də insanların həyatında olduğu kimi, müxtəlif hərəkət sürətləri var. Bunlara **temp** deyilir.
dinamika
melodiya
temp
ritm
Zərb alətlərində müxtəlif templi ritmlər
TEMP – musiqi əsərinin ifa sürətidir.
İdman
Musiqisi Oqtay Zülfüqarovun, sözləri Teymur Elçinindir.
I
Kim sevirsə idmanı,
Bir, iki, üç, dörd.
Poladdan olar canı,
Bir, iki, üç, dörd.
II
İdmanı sevirik biz,
Bir, iki, üç, dörd.
Bərkiyir bədənimiz,
Bir, iki, üç, dörd.
Sual və tapşırıqlar
1. Musiqi əsərinin ifa sürəti necə adlanır?
2. "İdman" mahnısının sədaları ilə idman hərəkətləri edin.
32

**MƏQSƏD:** Uşaqların dərslikdə göstərilmiş hərəkətlərini ayırd edir, onlara uyğun musiqi ilə hərəkət etməyi öyrənir.

**İş üsulu:** Beyin həmləsi, diskussiya
**Dərsin mərhələləri:**
**1. Motivasiya**

Problem vəziyyəti yaratmaq üçün şəkildə göstərilən kuklaların etdikləri hərəkətlərə uyğun zərb alətlərində müxtəlif templi ritmlər səsləndirilir.

Sonra şagirdlərə müraciət edilir:

– Dinlədiyiniz ritm nümunələri şəkildəki hərəkət növlərinə uğun gəlirmi?

Şagirdlər suala mümkün cavabları verirlər. Bundan sonra müəllimin köməyi ilə uşaqlar zərb alətlərində eşitdikləri musiqiyə uyğun ritmlər çalırlar.

**Tədqiqat sualı**

– Hansı hərəkət növlərinin adlarını deyə bilərsiniz?

Sinif oğlanlar və qızlar olmaqla 2 qrupa bölünür.

Oğlanlar şəkildəki oğlanların, qızlar isə qızların hərəkətlərinin adlarını söyləyirlər.

LAYİHƏ

**2. Tədqiqatın aparılması**

Müəllim dərsin əvvəlində səsləndirdiyi musiqi nümunələrini təkrar olaraq səsləndirir. **Tapşırıq:** 1. Mahnının ritmini zərb alətlərində tutmaq. 2. Mahnının ritminə uyğun yerində addımlamaq.

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Səslənən musiqilərin hansı janra aid olduğu müəyyənləşdirilir.

**4. Nəticə və ümumiləşdirmə**

Hər bir hərəkət növlərinə uyğun xarakterli musiqi nümunələri var.

**5. Yaradıcı tətbiqetmə**

Musiqisi bəstəkar Oqtay Zülfüqarova, sözləri şair Teymur Elçinə aid olan "İdman" mahnısı öyrədilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz insanın müxtəlif hərəkətlərinə uyğun musiqi əsərlərini müəyyənləşdirdik.

Bunun üçün hansı musiqi nümunələrindən istifadə etdik? Bu əsərlərin müəllifləri kimdir?

**Musiqi repertuarı:**

"İdman" mahnısı

Zərb alətlərində müxtəlif ritmlər

**16-cı dərs**

**KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ**

**Bu dərsdə 12–15-ci dərslərdə şagirdlərin mövzuları necə mənimsədikləri fənn müəlliminin tərtib etdiyi test sualları vasitəsi ilə yoxlanılır.**




**"MUSİQİ NOTLARINI TANIYAQ"**

***(tövsiyə olunur)***

Müəllim İnternet üzərindən əlində olan hər hansı bir cihaz vasitəsi ilə (telefon) mobil tətbiqə daxil olaraq dərslikdə verilmiş ardıcıllıqla proqramı yükləyir, şagirdlərə yeddi əsas musiqi səsinin not yazısını və səslənməsini əyani göstərir. Şagirdlər notları adları ilə səsləndirərək ifa edirlər.

**17-ci dərs**

**SİNİF KONSERTİ**

Birinci yarımildə öyrədilən bütün mahnılardan ibarət sinif daxilində konsert

LAYİHƏ

**18-ci dərs**
**Dərsin mövzusu: “AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTLƏRİ”**

**Məzmun standartları:** 1.2.2.; 2.1.1.; 3.1.1.
**İnteqrasiya:** A.d. 1.2.1.







**MƏQSƏD:** Azərbaycan xalq musiqi alətlərini tembrinə görə fərqləndirir.

**İş üsulu:** Beyin həmləsi, diskussiya, müqayisə
**Dərsin mərhələləri:**
**1. Motivasiya**
Problem vəziyyət yaratmaq üçün müəllim şagirdlərdən soruşur:
– Uşaqlar, dərslikdə şəkilləri göstərilən Azərbaycan xalq çalğı alətlərini tanıyırsınızmı?
Şagirdlər müxtəlif cavablar verir.
**Tədqiqat sualı**
– Gördüyünüz və adlarını bildiyiniz Azərbaycan xalq çalğı alətləri bir-birindən necə fərqlənir?
**2. Tədqiqatın aparılması**
Tar, kamança, dəf alətlərində ifa olunan musiqi nümunələri dinlənilir və tədqiqat sualı qoyulur.

LAYİHƏ

**Tapşırıq:**

Fərdi iş. Tanıdığınız Azərbaycan xalq çalğı alətlərini qruplara bölərək adlarını qeyd edin (simli alətlər qrupu, zərb alətləri qrupu).

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Şəkillərdəki Azərbaycan xalq çalğı alətlərinin tembrləri, musiqi alətlərinin səslənmələri bir-birindən fərqlənir.

**4. Nəticə və ümumiləşdirmə**

Müxtəlif Azərbaycan xalq çalğı alətləri səslənmələrinə görə bir-birindən fərqlənir ki, buna da tembr deyilir və onları 7 müxtəlif rənglə müqayisə edirlər.

**5. Yaradıcı tətbiqetmə**

Bəstəkar Oqtay Zülfüqarovun şair Hikmət Ziyanın sözlərinə bəstələdiyi "Tarımın mahnıları" mahnısı öyrədilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz müxtəlif Azərbaycan çalğı alətlərinin səslənmələrinin bir-birindən fərqli olduğunu aydınlaşdırdıq.

Bunun üçün hansı musiqi əsərlərindən istifadə etdik?

**Musiqi repertuarı**

"Tarımın mahnıları" mahnısı

Tar, kamança, dəf alətində ifa olunan musiqi nümunələri

LAYİHƏ

**19-cu dərs**
**Dərsin mövzusu: “MUSİQİDƏ İKİ LAD”**

**Məzmun standartları:** 1.2.1.; 2.1.1.; 3.1.2.; 3.3.1.
**İnteqrasiya:** A.d. 2.1.2.


16

Musiqidə iki lad

*Major və Minor*
*(Nağıl)*

Biri var idi, biri yox idi. Yer üzündə əbədi qarlar və buzlar ölkəsi var idi. Bu ölkədə bəstəkarlar kədərli musiqi yazar, uşaqlar kədərli nəğmələr oxuyardılar. İnsanlar sevinməz, acı göz yaşları axıdardı. Göz yaşları üst-üstə yığılar, donar, sonra parçalanıb böyük buz dağları şəklində okeanı səyahətə çıxardılar. Mahnılara kədərli ahəng verən cılız, alçaqboylu, qaraqabaq Minor özünü bu işdə günahkar hiss edər, heç kimlə danışmaz, gülməzdi. Günlərin bir günü Minor ölkədən getmək qərarına gəldi:

– Qoy insanlar xoşbəxt yaşasın, şən nəğmələr oxusunlar.

Minor buz dağlarından birinin üstünə çıxıb sürətlə bu diyardan uzaqlaşdı. Bərk külək əsir, ətrafda dalğalar şahə qalxırdı.

...Qəfildən günəş çıxdı, külək kəsdi, okean sakitləşdi. Sonra mavi suların qoynunda bir qayıq peyda oldu. Qayıqdan ətrafa şən musiqi yayıldı. Minor boylandı:

– Ey, sən kimsən?

Qayıqdakı hündürboylu, şən səsli və yüksək əhvali-ruhiyyəli oğlan dilləndi:

– Mən Majoram.

Minor həyəcanlandı:

– Dayan, Major, getmə! Sən bizim ölkəyə çox lazımsan. Əbədi qarlar və buzlaqlar ölkəsinə.

Major gülümsədi:

– Harada insanlara lazımamsa, ora getməyə həmişə hazıram. Dostum, tullan qayığa, birlikdə gedək.

...Günlər keçdi. Buzlar ölkəsinə bahar gəldi. Ağaclar çiçəklədi, quşlar şən nəğmə oxudu. Bu ölkənin insanları ilk dəfə idi ki, baharı görürdülər. Onlar sevinir və deyirdilər:

— Yaşasın iki dost: Major və Minor! Biz sizi çox sevirik!

*Sevinc Nuruqızı*



**LAD** – müxtəlif musiqi səslərinin qarşılıqlı əlaqə sistemidir.

38


16

**Bunu da bilin**

Major ladında yazılmış mahnılar, adətən, şən, minor ladında yazılan mahnılar isə qəmli səslənir.

***"Şən mahnı" və "Qəmli mahnı"***
*Musa Mirzəyev (fortepiano əsəri)*

***Qırmızı şar***
*Musiqisi Ağabacı Rzayevanın,*
*sözləri Cahangir Məmmədovundur.*

I
Böyük qardaşım mənə
Bir şar aldı hədiyyə.
Üstünə ulduz çəkib,
Onu uçurtdum göyə.

*Nəqərat:*
Şarım qalxdı havaya,
Salam apardı Aya.

II
Şarım uçdu, hey uçdu,
Bapbalaca göründü.
Göyün lap ortasında
Ağ dumana büründü.

*Nəqərat:*

III
Radionu qururam
Oyananda hər səhər.
Görən, nə vaxt şarımdan
Verəcəklər bir xəbər.

**Sual və tapşırıqlar**

1. Major ladında yazılmış mahnılar hansı xarakterli olur?
2. Minor ladında yazılmış mahnılar hansı xarakterli olur?

39

**MƏQSƏD:** Major və minor ladlarını fərqləndirir, musiqidə melodiyanın xarakterini müəyyənləşdirir.

**İş üsulu:** Beyin həmləsi, diskussiya, tapmaca
**Dərsin mərhələləri:**
**1. Motivasiya**

Problem vəziyyəti yaratmaq üçün lövhədən (>) böyük və (<) kiçik riyazi işarələri bir sırada, kiçik heyvanların təsviri olan digər plakat ikinci sırada asılır.

Sinfə müraciət olunur:

– Uşaqlar, bu plakatları müqayisə edin. Onların oxşar və fərqli cəhətləri nədir?

Şagirdlər fikirlərini söyləyirlər.

Lövhədən “Major” və “Minor” adlanan plakatlar asılır və Sevinc Nuruqızının “Major və Minor” nağılı səsləndirilir.

– Uşaqlar, Sevinc Nuruqızının “Major və Minor” nağılında Major buzlaqlar ölkəsinə qayıtdıqdan sonra baharın gəlməsi nə ilə izah olunur?

Şagirdlər suala mümkün cavabları verirlər.

LAYİHƏ

**Tədqiqat sualı**

– Major və minor ladlarında yazılmış musiqiləri necə fərqləndirmək olar?

**2. Tədqiqatın aparılması**

Bəstəkar Musa Mirzəyevin "Şən mahnı", "Qəmli mahnı" fortepiano pyesləri səsləndirilir.

**Tapşırıq:**

Fərdi iş. Dinlənilən musiqi nümunələrinin xarakterinə görə ladlarını müəyyənləşdir və müqayisə et.

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Minor və major ladlarında eşitdikləri musiqi nümunələrini yada salır.

**4. Nəticə və ümumiləşdirmə**

Major ladında yazılmış musiqi nümunələri, əsasən, şən, minor ladında yazılmışlar isə qəmli olurlar.

**5. Yaradıcı tətbiqetmə**

Musiqisi Ağabacı Rzayevaya, sözləri Cahangir Məmmədova aid olan "Qırmızı şar" mahnısı öyrədilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz "major" və "minor" ladlarını və onlara uyğun musiqi nümunələrini fərqləndirməyə çalışdıq. Bunu necə etdik?

– Musiqi nümunələrinin müəllifləri kimdir?

**Musiqi repertuarı:**

"Şən mahnı", "Qəmli mahnı" fortepiano əsəri

"Qırmızı şar" mahnısı

LAYİHƏ

## 20-ci dərs
## Dərsin mövzusu: "LAYLALAR"

**Məzmun standartları:** 1.1.3.; 2.1.1.; 3.3.2.
**İnteqrasiya:** H.b. 2.1.3.







**MƏQSƏD:** Mahnı janrına aid olan "laylalar" haqqında biliklər nümayiş etdirir.

**İş üsulu:** Beyin həmləsi, diskussiya, rəsm assosiasiyası, müqayisə
**Dərsin mərhələləri:**
**1. Motivasiya**
Problem vəziyyəti yaratmaq üçün dərslikdə Ayın üstündə uyuyan körpə şəkli olan təsvir uşaqların diqqətinə çatdırılır. Sinfə müraciət olunur:
– Uşaqlar, analarınız gecə sizi yatızdırmaq üçün nə edirlər?
Şagirdlər müxtəlif cavablar verirlər.
**Tədqiqat sualı**
– Anaların körpəsinin beşiyi başında oxuduğu mahnılar necə adlanır və hansı xarakterdə olur?
**2. Tədqiqatın aparılması**
Musiqisi bəstəkar Fikrət Əmirova məxsus olan "Laylay" fortepiano pyesi səsləndirilir.
**Tapşırıq:** Uşaqlar, dinlədiyiniz musiqinin xarakteri necədir? "Qəmli", "şən", "sakit", yoxsa "həyəcanlı?"

LAYİHƏ

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Müzakirə zamanı müəllim uşaqlara aydınlaşdırır ki, körpələrin ilk eşitdikləri mahnı "laylay" adlanır. Belə mahnılar layla, ninni, oxşama da adlanır və həzin melodiya kimi səslənir.

**4. Nəticə və ümumiləşdirmə**

"Laylalar" anaların körpələrini yatırtmaq üçün oxuduqları həzin mahnılara deyilir.

**5. Yaradıcı tətbiqetmə**

"Laylay" Azərbaycan xalq mahnısı sözləri ilə birlikdə öyrədilir. Uşaqlara aydınlaşdırılır ki, bu mahnı bənd və nəqəratdan ibarətdir və nəqəratın sözləri bəndin sözlərindən fərqli olaraq dəyişmir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz mahnılara aid olan "Laylay"la tanış olduq. Buna necə nail olduq?

– Sualın cavabını tapmaq üçün hansı musiqi əsərlərindən istifadə etdik və onların müəllifləri kimdir?

**Musiqi repertuarı:**

"Laylay" fortepiano pyesi

"Laylay" (Azərbaycan xalq mahnısı)

LAYİHƏ

**21-ci dərs**
**Dərsin mövzusu: “ƏZİZ ANA, ŞİRİNSÖZLÜ ANA”**

**Məzmun standartları:** 1.2.3.; 2.1.3.; 3.2.3.
**İnteqrasiya:** H.b. 2.1.3.







**MƏQSƏD:** Musiqi əsərlərində ana surətinin əks olunması üçün musiqi ifadə vasitələrini təyin edir.

**İş üsulu:** Beyin həmləsi, müzakirə
**Dərsin mərhələləri:**
**1. Motivasiya**
Problem vəziyyəti yaratmaq üçün bəstəkar Cahangir Cahangirovun şair İslam Səfərlinin sözlərinə yazdığı və Rəşid Behbudovun ifasında “Ana” mahnısının videosu göstərilir.
**Tədqiqat sualı**
– Eşitdiyiniz mahnı kimə həsr olunub?
**2. Tədqiqatın aparılması**
Mahnının şən, qəmli, həzin, həyəcanlı olması ilə əlaqədar fikir mübadiləsi aparılır.
**Tapşırıq:** “Ana” mahnısının sözləri ilə melodiyası arasında xaraktercə uyğunluq olduğu haqqında fikir söyləyin.
**3. İnformasiya mübadiləsi və müzakirəsi**
Qarşıdan gələn “Qadınlar bayramı” və analar haqqında müzakirə aparılır.
**4. Nəticə və ümumiləşdirmə**
Mahnının sözləri və melodiyası həzin əhvali-ruhiyyəlidir.

LAYİHƏ

**5. Yaradıcı tətbiqetmə**
Bəstəkar Rəşid Şəfəqin şair Rəfiq Zəkanın sözlərinə bəstələdiyi “Anacan” mahnısı öyrədilir.
**6. Qiymətləndirmə və ya refleksiya**
Dərs ümumiləşdirilir:
– Bu gün biz analara həsr olunmuş bir mahnını öyrəndik.
– Bunun üçün hansı musiqi nümunəsindən istifadə etdik və onun müəllifləri kimdir?
**Musiqi repertuarı:**
“Ana” mahnısı
“Anacan” mahnısı

**22-ci dərs**
**KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ**
**Bu dərsdə 18–21-ci dərslərdə şagirdlərin mövzuları necə mənimsədikləri fənn müəlliminin tərtib etdiyi test sualları vasitəsi ilə yoxlanılır.**

LAYİHƏ

## V BÖLMƏ
## AXAR SULAR AŞIB-DAŞIR

**23-cü dərs**
**Dərsin mövzusu: “ÇİÇƏKLİ YAZ”**

**Məzmun standartları:** 1.1.1.; 2.1.3.; 3.2.2.
**İnteqrasiya:** T.i. 3.1.1.


19

Çiçəkli yaz

Yaz təbiət səsləri ilə zəngin fəsildir. Dağlardakı qarların əriməsi nəticəsində sürətlə axan çayların səsi, quşların nəğməsi musiqi melodiyasına bənzəyir.

Bəstəkarlar 4 fəsil haqqında şən nəğmələr yazırlar.

*Mən baharın qızıyam*
*Musiqisi Ələkbər Tağıyevin, sözləri Zivər Ağayevanındır.*

46


19

*Qaranquş*
*Musiqisi Ağabacı Rzayevanın, sözləri Teymur Elçinindir.*

I
Sən gələndə, qaranquş,
Bu yerlərə yaz gəlir.
Dalınca qatar-qatar
Durna gəlir, qaz gəlir.
Getmə uzaq, qaranquş,
Sinəsi ağ qaranquş. } 2 dəfə

II
Çox ölkələr keçmisən,
Oxu, nəğmən şirindir.
Dünyada ən gözəl yer
Öz yuvan, öz yerindir.
Xoş gəlmisən, qaranquş,
Qalmışdım nigaran, quş. } 2 dəfə

Sual və tapşırıqlar
1. Hansı çiçəyə "baharın qızı" deyilir?
2. "Qaranquş" və "Mən baharın qızıyam" mahnılarında hansı fəsildən danışılır?

47

**MƏQSƏD:** Bəstəkarlarımızın yaz fəsli haqqında yazdıqları əsərlərdə istifadə olunan musiqi ifadə vasitələrini müəyyənləşdirir.

**İş üsulu:** Beyin həmləsi, müzakirə, müqayisə
**Dərsin mərhələləri:**
**1. Motivasiya**
Problem vəziyyəti yaratmaq üçün sinfə müraciət edilir:
– Uşaqlar, bu günə kimi biz hansı bayramları qeyd etmişik?
– Qarşıda hansı bayramı gözləyirik?
Şagirdlər sualları cavablandırırlar.
**Tədqiqat sualı**
– Yaz fəslinə həsr olunmuş mahnılar hansı xarakterdə olur?
**2. Tədqiqatın aparılması**

Musiqisi Ələkbər Tağıyevə, sözləri Zivər Ağayevaya aid olan “Mən baharın qızıyam” mahnısı səsləndirilir.

LAYİHƏ

**Tapşırıq:** 1. Mahnının bəndində və nəqəratın xarakterindəki dəyişikliklər haqqında fikir söyləmək. 2. Mahnının ritminə uyğun zərb alətində müşayiət etmək.

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Mahnının musiqi ifadə vasitələri müəyyənləşdirilir və xarakteri ilə əlaqələndirilir.

**4. Nəticə və ümumiləşdirmə**

Yaz fəslinə aid olan mahnılar, adətən, şən və oynaq xarakterdə olur.

**5. Yaradıcı tətbiqetmə**

Musiqisi Ağabacı Rzayevaya, sözləri Teymur Elçinə aid olan "Qaranquş" mahnısı öyrədilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz "Bayram əhvali-ruhiyyəsini musiqidə necə təsvir etmək olar?" sualına cavab verməyə çalışdıq.

Buna necə nail olduq və hansı musiqi əsərlərindən istifadə etdik?

**Musiqi repertuarı**

"Mən baharın qızıyam" mahnısı

"Qaranquş" mahnısı

LAYİHƏ

**24-cü dərs**
**Dərsin mövzusu: "BAHARI QARŞILAYAQ"**

**Məzmun standartları:** 1.2.3.; 2.1.1.; 3.1.1.
**İnteqrasiya:** H.b. 1.3.1.; F.t. 2.1.1.




**MƏQSƏD:** Bayramlar haqqında olan musiqi əsərlərinin xarakterini müəyyənləşdirir.

**İş üsulu:** Beyin həmləsi, müzakirə, müqayisə

**Dərsin mərhələləri:**

**1. Motivasiya**

Problem vəziyyəti yaratmaq üçün "Yallı" Azərbaycan xalq rəqsi səsləndirilir.

Bundan sonra şagirdlərə belə sualla müraciət olunur:

– Uşaqlar, rəqsin yaranmasında kimlər iştirak edir?

– Rəqsin xarakteri necədir?

Şagirdlər müxtəlif cavablar verirlər.

**Tədqiqat sualı**

– Dinlədiyiniz rəqs nəyə həsr olunub və onun xarakteri bayram əhvali-ruhiyyəsinə uyğundurmu?

**2. Tədqiqatın aparılması**

"Yallı" rəqsindən bir hissə təkrar səsləndirilir.

**Tapşırıq:** 1. Rəqsin xarakterini müəyyənləşdirin və onun rəqs, yoxsa marş janrına uyğunluğunu göstərin.

2. Şagirdlərə rəqsin xarakterinə uyğun hərəkət etmək tapşırılır.

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Musiqi ifadə vasitələri müəyyənləşdirilir və onun xarakterə uyğunluğu aydınlaşdırılır.

**4. Nəticə və ümumiləşdirmə**

Bu mahnının xarakterini temp və ritm kimi musiqi ifadə vasitələri ilə aydınlaşdırmaq mümkündür.

**5. Yaradıcı tətbiqetmə**

Musiqisi Fikrət Əmirova, sözləri Zeynal Cabbarzadəyə aid "Bahar gəlir" mahnısı öyrədilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz "Yallı" Azərbaycan xalq rəqsi və "Bahar gəlir" mahnılarında şən əhvali-ruhiyyə yaratmaq üçün bəstəkarın 6/8 metrik ölçüdən, cəld tempdən istifadə etdiyini müəyyənləşdirdik.

– Bunun üçün hansı musiqi nümunələrindən istifadə etdik və bu əsərlərin müəllifləri kimdir?

**Musiqi repertuarı:**

"Yallı"Azərbaycan xalq rəqsi

"Bahar gəlir" mahnısı

LAYİHƏ

**25-ci dərs**
**Dərsin mövzusu: "NOVRUZ BAYRAMI"**

**Məzmun standartları:** 1.1.1.; 2.1.1.; 3.1.2.; 3.3.2.
**İnteqrasiya:** T.i. 3.1.1.

**MƏQSƏD:** Novruz bayramına həsr olunmuş mahnılarda sözlərlə melodiya arasındakı əlaqəni müəyyənləşdirir.




**İş üsulu:** Beyin həmləsi, müzakirə, müqayisə

**Dərsin mərhələləri:**

**1. Motivasiya**

Problem vəziyyəti yaratmaq üçün sinfə müraciət edilir:

– Uşaqlar, Novruz bayramı ilin hansı fəslinə aiddir?

– Bayram deyəndə biz nə başa düşürük?

Uşaqlar sualları cavablandırırlar.

**Tədqiqat sualı**

– Novruz bayramına həsr olunmuş mahnıların xarakteri necə olmalıdır? (Şən, qəmli, yoxsa həyəcanlı?)

**2. Tədqiqatın aparılması**

– "Novruzu" Azərbaycan xalq rəqsi səsləndirilir.

**Tapşırıq:** Qollarınızı bir-birinizlə birləşdirməklə musiqinin xarakterinə uyğun rəqs hərəkətləri etmək.

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Dinlənilən musiqinin şən əhvali-ruhiyyəyə malik olduğu və rəqs xarakteri müəyyənləşdirilir.

**4. Nəticə və ümumiləşdirmə**

Bayrama həsr olunmuş mahnıların ritmi, tempi və melodiyası şən əhvali-ruhiyyəyə malik olur.

**5. Yaradıcı tətbiqetmə**

Bəstəkar Rəşid Şəfəqin Sabir Mustafanın sözlərinə yazdığı "Novruz bayramı" mahnısı öyrədilir.

**Tapşırıq:** 1. Mahnının ritminə uyğun əl çalmaq;
2. Mahnının bəndləri arasında oxşarlığı müəyyənləşdirin.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz bayrama həsr olunmuş musiqi nümunələrinin xarakterini müəyyənləşdirdik.

– Bunun üçün hansı musiqi nümunələri ilə tanış olduq və onların xarakterləri necədir?

**Musiqi repertuarı:**

"Novruzu" Azərbaycan xalq rəqsi
"Novruz bayramı" mahnısı

LAYİHƏ

## 26-cı dərs
## Dərsin mövzusu: “MƏNİM AZƏRBAYCANIM”

**Məzmun standartları:** 1.2.1.; 2.1.2.; 3.1.2.; 3.3.2.
**İnteqrasiya:** H.b. 3.2.2.


22

Mənim Azərbaycanım

30 ildən artıqdır ki, Azərbaycanın Qarabağ adlanan ərazisi işğal altında idi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi noyabrın 8-də böyük zəfərlə bitdi. Torpaqlarımız işğaldan azad edildi. 44 gün davam edən qəhrəmanlıq mübarizəsi Vətən tarixinə qızıl hərflərlə yazıldı. Ordumuzu qələbəyə ruhlandıran mahnı və rəqslər zəfərə gedən yolda öz müsbət təsirini göstərdi.

*Qarabağ*
*Musiqisi Cahangir Cahangirovun, sözləri Rəfiq Zəkanındır.*

50


22

*Azərbaycan –Türkiyə*
*Musiqisi Cavanşir Quliyevin, sözləri Bəxtiyar Vahabzadənindir.*

I

Bir millətik, iki dövlət,
Eyni arzu, eyni niyyət. } 2 dəfə
Hər ikisi cümhuriyyət,
Azərbaycan –Türkiyə. } 2 dəfə

II

Bir ananın iki oğlu,
Bir ağacın iki qolu. } 2 dəfə
O da ulu, bu da ulu,
Azərbaycan – Türkiyə. } 2 dəfə

**Sual və tapşırıqlar**
1. "Qarabağ" mahnısında Qarabağın gözəllikləri hansı sözlərlə təsvir olunub?
2. Qarabağ haqqında daha hansı mahnıları eşitmisiniz?
3. "Azərbaycan–Türkiyə" mahnısında iki xalqın dostluğunu ifadə edən misraları səsləndirin.

51

**MƏQSƏD:** Mahnının xarakterini, onun tempindən və ritmindən asılılığını müəyyənləşdirir.

**İş üsulu:** Beyin həmləsi, müzakirə, rəsm assosiasiyası
**Dərsin mərhələləri:**
**1. Motivasiya**

Bəstəkar Cahangir Cahangirova və şair Rəfiq Zəkaya məxsus olan “Qarabağ” mahnısı səsləndirilir.

Bundan sonra müəllim 2020-ci il sentyabrın 27-də başlayan II Qarabağ savaşının 44 gündən sonra zəfərlə bitdiyi haqqında uşaqlara məlumat verir, həm də dərslikdə verilmiş üçrəngli bayrağın fonunda Azərbaycan əsgərinin şəklinə diqqət yetirməyi məsləhət görür. Müəllim şəkil əsasında məzmunu haqqında şagirdlərə suallar verir.

1. Uşaqlar şəkildə siz nə görürsünüz?
2. Bizim bayrağımızda hansı rənglər təsvir olunub?

Uşaqlar öz bildiklərinin əsasında cavablar verirlər.

**Tədqiqat sualı**

– “Qarabağ” mahnısını dinləyərkən nə hiss edirsiniz?

**2. Tədqiqatın aparılması**

Fərdi iş

LAYİHƏ

**Tapşırıq:** “Qarabağ” mahnısının sözlərinə əsasən kiçik esse yazın.

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Mahnının musiqisi ilə sözləri arasındakı əlaqə araşdırılır.

**4. Nəticə və ümumiləşdirmə**

Mahnının sözləri ilə musiqisinin xarakteri bir-birinə uyğundur.

**5. Yaradıcı tətbiqetmə**

Musiqisi Cavanşir Quliyevə, sözləri Bəxtiyar Vahabzadəyə məxsus “Azərbaycan–Türkiyə” adlanan mahnı öyrədilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz Vətənimiz və onun bir hissəsi olan “Qarabağ” haqqında mahnılarla tanış olduq, həm də onların xarakterlərini müəyyənləşdirməyə çalışdıq. Buna necə nail olduq?

– Mövzumuzu aydınlaşdırmaq üçün hansı mahnılardan istifadə etdik və onların müəllifləri kimdir?

**Musiqi repertuarı:**

“Azərbaycan–Türkiyə” mahnısı

“Qarabağ” mahnısı

**27-ci dərs**

**KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ**

**Bu dərsdə 23–26-cı dərslərdə şagirdlərin mövzuları necə mənimsədikləri fənn müəlliminin tərtib etdiyi test sualları vasitəsi ilə yoxlanılır.**

LAYİHƏ

## VI BÖLMƏ
## TEATR ALƏMİ

**28-ci dərs**
**Dərsin mövzusu: “SƏSLƏNƏN ŞƏKİLLƏR”**

**Məzmun standartları:** 1.2.1.; 2.1.3.; 3.1.1.; 3.2.1.
**İnteqrasiya:** T.i. 3.1.1.







**MƏQSƏD:** Müxtəlif şəkillərə aid musiqi nümunələrini ayırd edir və onlara emosional münasibət bildirir.

**İş üsulu:** Beyin həmləsi, müzakirə, müqayisə
**Dərsin mərhələləri:**
**1. Motivasiya**

Problem vəziyyəti yaratmaq üçün şəkillərdə və musiqidə həyat hadisələrinin təsviri mövzusunda diskussiya aparılır. Bununla əlaqədar keçmiş dərslərdə öyrədilmiş musiqi nümunələri yada salınır və suallar verilir:

– Uşaqlar, dərslikdə gördüyünüz şəkillərdə nə təsvir olunub?

– Bu təsvirlərə uyğun musiqi nümunələrinin adlarını deyə bilərsinizmi?

Şagirdlər bu sualları cavablandırırlar.

**Tədqiqat sualı**

– Şəkillərdə və musiqi nümunələrində həyat hadisələrindən başqa daha nəyi təsvir etmək olar?

LAYİHƏ

**2. Tədqiqatın aparılması**

“Ana Kürüm” aşıq mahnısı, musiqisi Cavanşir Quliyevin, sözləri Əli Kaminin olan “Əsgər marşı” və “Brilyant” Azərbaycan xalq rəqsindən parçalar səsləndirilir.

**Tapşırıq:** Dərslikdəki şəkillərə uyğun eşitdiyiniz musiqi nümunələrindən kiçik hissəni oyuncaq fortepianoda səsləndirin.

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

– Şəkillərə uyğun musiqi nümunələrinin adları söylənilir.

**4. Nəticə və ümumiləşdirmə**

Musiqidə və şəkillərdə istənilən həyat hadisələrini təsvir etmək mümkündür.

**5. Yaradıcı tətbiqetmə**

Musiqisi Oqtay Zülfüqarova, sözləri Teymur Elçinə aid olan “Tapın görək” mahnısı öyrədilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz musiqi əsərlərində və şəkillərdə hansı həyat hadisələrini təsvir etmək imkanı qazandıq? Bunun üçün hansı şəkillərdən və musiqi əsərlərindən istifadə etdik?

– Musiqi əsərlərinin müəllifləri kimdir?

**Musiqi repertuarı:**

“Əsgər marşı” mahnısı

“Brilyant” Azərbaycan xalq rəqsi

“Ana Kürüm” aşıq mahnısı

“Tapın görək” mahnısı

LAYİHƏ

**29-cu dərs**
**Dərsin mövzusu: “SEHRLİ ÇUBUQ”**

**Məzmun standartları:** 1.2.2.; 2.1.3.; 3.1.1.; 3.3.3.
**İnteqrasiya:** Riy. 4.2.3.; H.b. 3.2.1.; F.t. 3.1.1.


24

Sehrli çubuq

Orkestrə dirijor rəhbərlik edir. Orkestrdəki musiqiçilər dirijorun əlindəki çubuqla etdiyi hərəkətə uyğun olaraq öz ifalarını başlayır, davam etdirir və sona çatdırırlar.



TEMBR – səsin rəngidir.

Notların ölçülərinə əsasən dirijorluq edək.

Çərək not = 1 və
Yarım not = 1 və 2 və

56


24

"Cəngi" rəqsi
"Koroğlu" operasından
Musiqisi Üzeyir Hacıbəylinindir.

Azərbaycan əsgəri
Musiqisi Reyhan Hacızadənin,
sözləri Ülvi Hisslərindir.

I
Qüvvətlidir qolları,
Qırıb tökər kolları.
Keçər çətin yolları,
Azərbaycan əsgəri!

II
Qürurun tutar yüksək,
Zəifə edər kömək.
Dillərdən düşməyəcək,
Azərbaycan əsgəri!

Nəqarət:
Qəlbiaçıq, gözütox,
Ona tay, bərabər yox.
Gedər ancaq irəli,
Azərbaycan əsgəri! } 2 dəfə

Sual və tapşırıqlar
1. Orkestri kim idarə edir?
2. "Cəngi" rəqsi hansı operadandır?
3. "Azərbaycan əsgəri" mahnısında əsgərlərin igidliyi hansı sözlərlə ifadə edilib?

57

**MƏQSƏD:** Musiqini dinləyərkən, yaxud mahnı oxuyarkən dirijorluq edən müəllimin əl hərəkətlərini başa düşür.

**İş üsulu:** Beyin həmləsi, diskussiya
**Dərsin mərhələləri:**
**1. Motivasiya**
Problem vəziyyəti yaratmaq üçün bəstəkar Ü.Hacıbəylinin “Koroğlu” operasından “Cəngi” dinlənilir və yaxud izlənilir. Müəllim musiqinin məzmununu şagirdlərə izah etdikdən sonra belə sualla müraciət edir:

– Uşaqlar, dinlədiyiniz musiqidə hansı musiqi alətlərinin səslərini təyin edə bildiniz?

Uşaqlar müxtəlif cavablar verirlər. Uşaqlar musiqi alətlərinin adlarını söylədikcə, müəllim onların lövhədən asılmış şəkillərini şagirdlərə çubuqla göstərir.

**Tədqiqat sualı**
– Uşaqlar, əlində sehrli çubuq tutmuş şəxs necə adlanır və onun fəaliyyəti nədən ibarətdir?

**2. Tədqiqatın aparılması**
Uşaqlar 2 qrupa bölünürlər. Tək qrupun uşaqları dirijorun vəzifəsi, cüt qrupun uşaqları isə dirijor çubuğu haqqında öz fikirlərini söyləyirlər.

**Tapşırıq:** Mahnının ritmini müəyyənləşdirmək və ona uyğun dirijorluq etmək.

LAYİHƏ

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Dirijorun və dirijor çubuğunun orkestrdə rolu müəyyənləşdirilir.

**4. Nəticə və ümumiləşdirmə**

Orkestr məhz dirijorun əlindəki çubuqla öz ifalarını başlayır və dirijorun etdiyi hərəkətə uyğun ifalarını sona çatdırır.

**5. Yaradıcı tətbiqetmə**

Bəstəkar Reyhan Hacızadənin şair Ülvi Hisslərin sözlərinə bəstələdiyi "Azərbaycan əsgəri" mahnısı öyrədilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz musiqi ifaçılığında dirijorun rolunu müəyyənləşdirdik. Buna necə nail olduq?

– Mövzu ilə əlaqədar hansı musiqi nümunələrindən istifadə etdik? Əsərlərin müəllifləri kimdir?

**Musiqi repertuarı:**

"Koroğlu" operasından "Cəngi"

"Azərbaycan əsgəri" mahnısı

LAYİHƏ

**30–31-ci dərs**
**Dərsin mövzusu: “KUKLA TEATRI”**

**Məzmun standartları:** 1.1.3.; 2.1.1.; 3.3.3.
**İnteqrasiya:** A.d. 2.2.5.


25-26
Kukla teatrı
**Azərbaycan Dövlət Kukla Teatrında** uşaqlar, məktəblilər üçün tamaşalar göstərilir.
*Şəngülüm, Şüngülüm, Məngülüm*
*Üç keçi balasının mahnısı*
*Şəngülüm, Şüngülüm, Məngülüm*
*"Çəpişlərin yallısı"*
58


25-26
*Balaca keçilərin kupletləri*
*"Şəngülüm, Şüngülüm, Məngülüm" tamaşasından*
*Musiqisi Sərdar Fərəcovun,*
*librettosu* Hüseynağa Atakişiyevindir.*

**Şəngül:**
Şəngüləm, gözlərim qara,
Bənzəyirəm ceyranlara.
Şəvə tüküm buruq-buruq,
İncə baldır, qısa quyruq.
Yeni çıxmış buynuzlarım,
Buxağımda qotazlarım.
Bir yaşında maral çəpiş,
Bacaqlarım bir dal çəpiş.
Şəngüləm, Şəngüləm, Şəngüləm.

**Şüngül:**
Şüngülün gözləri nərgiz,
Sanki dünyadan xəbərsiz.
Gecə-gündüz oynaqlaram,
Öz anamı qucaqlaram.
İpək tükü bəyaz, yumşaq,
Qulaqlarım sanki zanbaq.
Alnındakı qaşqa gözəl,
Yoxdu məndən başqa gözəl.
Şüngüləm, Şüngüləm, Şüngüləm.

**Məngül:**
Hələ bircə Məngülə bax,
Ayağında şaklə bax.
Yoxdur belə gözəl çəpiş,
Nazlı çəpiş, təpəl çəpiş.
Yumşaq tükü ala-bula,
Tamamilə başabəla!
Yoxdu belə gözəl çəpiş,
Nazlı çəpiş, təpəl çəpiş.
Məngüləm, Məngüləm, Məngüləm.



**REGİSTR** – səs diapazonunun eyni tembrə malik müəyyən bir hissəsidir.

**Sual və tapşırıqlar**
1. "Balaca keçilərin kupletləri" hansı tamaşadandır?
2. Keçi balalarının kupletlərini oxuyun və onlar haqqında nə öyrəndiyinizi deyin.

*libretto – musiqili səhnə əsərinin ədəbi (yazılı) mətni
59

**MƏQSƏD:** Azərbaycan Dövlət Kukla Teatrı haqqında məlumat verir.

**İş üsulu:** Beyin həmləsi, müzakirə, mahnı assosiasiyası
**Dərsin mərhələləri:**
**1. Motivasiya**
Problem vəziyyəti yaratmaq üçün bəstəkar Sərdar Fərəcovun “Şəngülüm, Şüngülüm, Məngülüm” musiqili tamaşasından üç keçi balasının mahnısı səsləndirilir.
– Siz bu musiqi haqqında nə deyə bilərsiniz? Sizcə, bu mahnıda nə təsvir olunub?
Şagirdlər sualları cavablandırırlar.
**Tədqiqat sualı**
– Musiqidə heyvanları təsvir etmək olarmı?
**2. Tədqiqatın aparılması**
Dərslikdəki 3 çəpiş təsvirinə diqqət yetirilir. Müəllim “Şəngülüm, Şüngülüm, Məngülüm” Azərbaycan xalq nağılını uşaqların yadına salır və Bakıda 1931-ci ildə yaradılmış “Kukla teatrı”nda tamaşaya qoyulması ilə əlaqədar məlumat verir.

LAYİHƏ

Dinlədiyiniz mahnıda çəpişləri təyin edin. Bundan sonra yenə "Şəngülüm, Şüngülüm, Məngülüm" tamaşasından "Çəpişlərin yallısı" səsləndirilir.

**Tapşırıq:** "Yallı"ya uyğun əl hərəkətləri (dirijorluq) edin.

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Səslənən "Yallı"ya uyğun rəqsi hərəkətlər göstərilir.

**4. Nəticə və ümumiləşdirmə**

Teatr səhnələrində heyvanların təsvirini musiqi ifadə vasitəsi ilə də vermək mümkündür.

**5. Yaradıcı tətbiqetmə**

Musiqisi Sərdar Fərəcova, librettosu Hüseynağa Atakişiyevə aid olan "Şəngülüm, Şüngülüm, Məngülüm" tamaşasından çəpişlərin mahnısı öyrədilir.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz Azərbaycan Dövlət Kukla Teatrı haqqında və musiqidə heyvanların təsviri ilə əlaqədar məlumatlar əldə etdik.

– Sualın cavabını hansı musiqi əsərlərinin nümunəsində araşdırdıq? Bu əsərlərin müəllifləri kimdir?

**Musiqi repertuarı:**

"Şəngülüm, Şüngülüm, Məngülüm" musiqili tamaşasından "3 çəpişin mahnısı"

Tamaşadan "Çəpişlərin yallısı"

LAYİHƏ

## 32-ci dərs
## Dərsin mövzusu: “MUSİQİNİ YARADAN İNTONASİYA”

**Məzmun standartları:** 1.2.2.; 2.1.3.; 3.3.2.
**İnteqrasiya:** A.d. 2.1.1.







**MƏQSƏD:** Musiqidə intonasiyanın rolunu aydınlaşdırır, melodiyaların məzmununu müəyyənləşdirir.

**İş üsulu:** Beyin həmləsi, diskussiya, rəsm assosiasiyası
**Dərsin mərhələləri:**
**1. Motivasiya**

Problem vəziyyəti yaratmaq üçün neçə rəng, neçə notun olması haqqında bilgilər şagirdlərin yadına salınır və qeyd edilir ki, intonasiyanın da rənglər və notlar kimi 7 tərkib hissəsi var, həm də onu göy qurşağının 7 rənginə bənzətmək olar.

Bu bilgiləri verdikdən sonra müəllim bu vaxta kimi uşaqların melodiya, dinamika, tembr, lad, registr, ritm, temp haqqında bilgilərini yada salır və dərslikdə öz əksini tapmış yeddi ləçəkli gül səbət çiçəyi ilə müqayisə edir.

**Tədqiqat sualı**

– Musiqidə melodiyanın intonasiyası dedikdə nə başa düşürsünüz?

**2. Tədqiqatın aparılması**

Sinif 4 qrupa bölünür, musiqisi O.Zülfüqarova, sözləri A.Şaiqə aid olan “Çobanın mahnısı” dinlənilir və hər qrup ayrılıqda mahnını intonasiyaya əsasən təhlil edir.

LAYİHƏ

**Tapşırıq:** 7 ləçəkli gül şəklində "intonasiya"nın 7 tərkib hissəsinin adlarını söyləmək.

**3. İnformasiya mübadiləsi və müzakirəsi**

Rənglərdə və notlarda 7 tərkib hissə olduğu kimi, intonasiyada da 7 tərkib hissə mövcuddur.

**4. Nəticə və ümumiləşdirmə**

İntonasiyanın 7 tərkib hissəsini göy qurşağının 7 rəngi ilə müqayisə etmək olar.

**5. Yaradıcı tətbiqetmə**

Bəstəkar Oqtay Rəcəbovun şair Əjdər Ağayevin sözlərinə bəstələdiyi "İkincilərik biz" mahnısı öyrədilir, onun ritmi, tempi, melodiyası və sairə ətrafında fikir mübadiləsi aparılır.

**6. Qiymətləndirmə və ya refleksiya**

Dərs ümumiləşdirilir:

– Bu gün biz musiqidə intonasiyanın 7 tərkib hissəsi ilə tanış olduq. Buna necə nail olduq?

– Mövzu ilə əlaqədar hansı şeir nümunəsindən və mahnıdan istifadə etdik? Şeir və mahnının müəlliflərinin adını söyləyin.

**Musiqi repertuarı:**

"Çobanın mahnısı"

"İkincilərik biz" mahnısı

**33-cü dərs**

**KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ**

**Bu dərsdə 28–32-ci dərslərdə şagirdlərin mövzuları necə mənimsədikləri fənn müəlliminin tərtib etdiyi test sualları vasitəsi ilə yoxlanılır.**




### "MUSİQİ ALƏTLƏRİNİN SEHRLİ SƏSLƏRİ"

*(tövsiyə olunur)*

Müəllim İnternet üzərindən əlində olan hər hansı bir cihaz vasitəsi ilə (telefon) mobil tətbiqə daxil olaraq dərslikdə verilmiş ardıcıllıqla proqramı yükləyir, şagirdləri 1 səsli, 2 səsli və 3 səsli ifa haqqında məlumatlandırır.

**34-cü dərs**

**SİNİF KONSERTİ**

İkinci yarımildə öyrədilən bütün mahnılardan ibarət sinif daxilində konsert.

LAYİHƏ

# MAHNI REPERTUARI

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*




## AZƏRBAYCAN

(*Aşıq mahnısı*)

*Not yazısı Səid Rüstəmovun,*
*sözləri Səməd Vurğunundur.*




LAYİHƏ




## CÜCƏLƏRİM

*Musiqisi Qəmbər Hüseynlinin,*
*sözləri Tofiq Mütəllibovundur.*




LAYİHƏ

## TUT MƏNİ, TUT!

*Musiqisi Asya Sultanovanın,*
*sözləri Teymur Elçinindir.*




## BAYRAM GÜNÜ

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Mirmehdi Seyidzadənindir.*




## İDMAN

*Musiqisi Oqtay Zülfüqarovun,*
*sözləri Teymur Elçinindir.*




LAYİHƏ

# NAĞARA

*Musiqisi Oqtay Zülfüqarovun,*
*sözləri Abdulla Şaiqindir.*




# MAHNI VƏ RƏQS

*Musiqisi Cahangir Cahangirovun,*
*sözləri Mirmehdi Seyidzadənindir.*




LAYİHƏ

## FƏSİLLƏR

*Musiqisi Məryəm Əlibəylinin,*
*sözləri Sevinc Nuruqızınındır.*




## SÜLH MARŞI

*Musiqisi Sevda İbrahimovanın,*
*sözləri Teymur Elçinindir.*




LAYİHƏ




## NƏNƏM NAĞIL DANIŞIR

*Musiqisi Sevda İbrahimovanın,*
*sözləri Nəbi Xəzrinindir.*




## QIŞ MAHNISI

*Musiqisi Əfsər Cavanşirovun,*
*sözləri Tofiq Mütəllibovundur.*




LAYİHƏ




## QAR RƏNGİ, DUMAN RƏNGİ

*Musiqisi Reyhan Hacızadənin,*
*sözləri Ülvi Hisslərindir.*




LAYİHƏ

# TARIMIN MAHNILARI

*Musiqisi Oqtay Zülfüqarovun,*
*sözləri Hikmət Ziyanındır.*

Cəld və şən




# ŞƏN MAHNI

*Musa Mirzəyev*

Moderato



# QƏMLİ MAHNI

*Musa Mirzəyev*

Andante




LAYİHƏ

## QIRMIZI ŞAR

*Musiqisi Ağabacı Rzayevanın, sözləri Cahangir Məmmədovundur.*




## LAYLAY

*(Azərbaycan xalq mahnısı)*




Layihə

## ANACAN

*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Rəfiq Zəkanındır.*




## QARANQUŞ

*Musiqisi Ağabacı Rzayevanın,*
*sözləri Teymur Elçinindir.*




LAYİHƏ

## BAHAR GƏLİR

*Musiqisi Fikrət Əmirovun,*
*sözləri Zeynal Cabbarzadənindir.*




## NOVRUZ BAYRAMI

*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Sabir Mustafanındır.*




LAYİHƏ




## AZƏRBAYCAN – TÜRKİYƏ

*Musiqisi Cavanşir Quliyevin,*
*sözləri Bəxtiyar Vahabzadənindir.*




LAYİHƏ




## TAPIN GÖRƏK

*Musiqisi Oqtay Zülfüqarovun,*
*sözləri Teymur Elçinindir.*




LAYİHƏ

# AZƏRBAYCAN ƏSGƏRİ

*Musiqisi Reyhan Hacızadənin,*
*sözləri Ülvi Hisslərindir.*




LAYİHƏ




## BALACA KEÇİLƏRİN KUPLETLƏRİ

*Musiqisi Sərdar Fərəcovun,*
*librettosu Hüseynağa Atakişiyevindir.*




LAYİHƏ




# İKİNCİLƏRİK BİZ

*Musiqisi Oqtay Rəcəbovun,*
*sözləri Əjdər Ağayevindir.*




LAYİHƏ

**BURAXILIŞ MƏLUMATI**

**MUSİQİ 2**

*Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün*
*Musiqi fənni üzrə dərsliyin (qrif nömrəsi: 2021-015)*
**METODİK VƏSAİTİ**


Tərtibçi heyət:

| | |
|---|---|
| Müəlliflər | **Oqtay Rəcəbov** |
| | **Nazım Kazımov** |
| | **Reyhan Hacızadə** |
| Redaktor | **Sevinc Nuruqızı** |
| Bədii və texniki redaktor | **Abdulla Ələkbərov** |
| Dizayner | **Firuzə İbrahimova** |
| Korrektor | **Ülkər Tağıyeva** |



Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi 8,6. Fiziki çap vərəqi 9,0.
Formatı 57x82 1/8. Kəsimdən sonra ölçüsü: 195x275.
Səhifə sayı 72. Şriftin adı və ölçüsü: jurnal qarnituru 11-13 pt.
Ofset kağızı. Ofset çapı.
Sifariş __. Tiraj . Pulsuz. Bakı–2021.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:**

Çap məhsulunu nəşr edən:
**“Təhsil Nəşriyyat-Poliqrafiya” MMC**
(Bakı, AZ 1052, F.Xoyski küç., 121a (149))

Çap məhsulunu istehsal edən:



LAYİHƏ

PULSUZ

LAYİHƏ